# VASİTƏÇİSİZ ƏLDƏ EDİLƏN UĞURLAR

Prezident İlham Əliyev Bakıda keçirilən Forumda bildirib ki, Azərbaycan və Ermənistan vasitəçilər olmadan sülhə doğru gedir.





Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, sülh prosesinin irəlilədilməsi istiqamətində ümidverici addımlar atılmaqdadır. İki ölkə arasında birbaşa danışıqlar fonunda əldə edilmiş razılaşmalar bu qənaətə gəlməyə əsas verir.

Bakının humanist qərarı ilə ölkəmizə qarşı müəyyən cinayətlərdə ittiham olunan erməni hərbçilər azad edildi. COP29 tədbiri ilə bağlı qarşılıqlı anlaşma əldə olundu. Daha sonra sərhədlərin müəyyənləşdirilməsi istiqamətində birgə komissiyaların ardıcıl görüşləri keçirildi.

SƏHİFƏ 4-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

4 MAY ŞƏNBƏ 2024 № 16 (4167) Qiyməti - 40 qəpik www.kaspi.az





## TURİZM SEKTORUNDA CANLANMA

Dünya üzrə turizm bazarı 2022-ci ildə təxminən 70 faizə yaxın, 2023-cü ildə 95 faiz bərpa olunub. 2024-cü ildə isə bu sahənin tamamilə bərpa olunacağı proqnozlaşdırılır.

SƏHİFƏ 7-də



## AVROPADA FRANSIZ-ALMAN DUELİ

Almaniya ilə Fransa arasında yüz ildən çoxdur davam edən rəqabət özünün yeni mərhələsinə qədəm qoyub. Tərəflər münasibətləri aydınlaşdırmaq üçün görüşmək qərarına gəliblər.

SƏHİFƏ 6-da




### "SÜLH VƏ QLOBAL TƏHLÜKƏSİZLİK NAMİNƏ DİALOQ"

# SÜLHÜ TƏŞVİQ EDƏN FORUM

Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO-nun, BMT-nin Sivilizasiyalar Alyansının və ICESCO-nun tərəfdaşlığı ilə keçirilib. Tədbirdə 100-dən çox ölkəni təmsil edən 700 mötəbər qonaq iştirak edib.

**SÜLH VƏ DİALOQUN TƏŞVİQİNƏ TÖHFƏ**

Azərbaycan dünyada sülh və dialoqun təşviqinə mühüm töhfə verən daha bir Foruma ev sahibliyi edib. "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində Prezident İlham Əliyev də iştirak edib.

**NEOKOLONİALİZM CİDDİ BƏLA KİMİ**

Hazırda ölkəmiz dünyada neokolonializm meyllərinin qarşısının alınması, bu siyasətin qurbanına çevrilən xalqların səsinin eşidilməsi istiqamətində də fəal siyasət yürüdür. Prezident İlham Əliyev Forumdakı çıxışında bu məsələyə də ətraflı toxunub.

SƏHİFƏ 3-də



## QUŞ ƏTİ QITLIĞI OLMAYACAQ

Türkiyədə quş ətinin qiymətinin artması ixraca qadağa ilə müşahidə edilir. Ekspertlər bildirirlər ki, məlum proseslərin Azərbaycanda yaşanması ehtimalı azdır. Amma baş verənlər dolayısı ilə qiymətlərə təsir edə bilər.

SƏHİFƏ 10-da



## ƏNƏNƏVİ BAZARLAR SIRADAN ÇIXIR?

Bazarlar bir-bir sıradan çıxır. Ekspertlərin bir qismi bazarların bağlanmasını dəstəkləsə də, digər qismi bu addımların yanlış olduğunu bildirir. Onların fikrincə, bazar bizim keçmişimizdir və onu qoruyub saxlamalıyıq.

SƏHİFƏ 12-də

### "İNDİ GÖRÜRƏM Kİ, BİZ SƏHV ETMİŞİK..."

## "KİNOYA ÇƏKİLMƏK HƏVƏSİM HƏLƏ ÖLMƏYİB..."



"Çox görüşlərdə oluram. Həmişə müxtəlif auditoriyalara dəvət edirlər. Amma hər görüşdən əvvəl adam həyəcanlanır. Məncə, bu, məsuliyyət hissidir..." Xalq artisti, Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Rasim Balayev "Məktəbdə" layihəsində qonaq olarkən həyəcanını belə ifadə etdi. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin "Kaspi" qəzeti ilə birgə reallaşdırdığı layihənin əhəmiyyətini isə qonaq xüsusi vurğuladı.

SƏHİFƏ 8-9-da



## MİLLİ TEATRIMIZIN SARI SİMİ

Sənət dostları tanınmış aktyor Kamal Xudaverdiyevi mərd, bütöv və sədaqətli insan kimi xatırlayırlar. Deyirlər ki, sənətkar ömrünün sonuna qədər yaşam prinsiplərinə sadiq qalıb.

SƏHİFƏ 15-də



## AVROPANI FƏTH EDƏN XANIM

Ülviyyə Fətəliyeva tarixi nəticəyə imza atdı. O, Rodos adasında təşkil edilən qadın şahmatçılar arasında Avropa çempionatında bütün rəqiblərini üstələdi. Turniri məğlubiyyətsiz başa vuran Fətəliyeva 10 görüşdə 8,5 xal qazandı.

SƏHİFƏ 16-da



Kəlbəcərin Baş Planının detalları

SƏHİFƏ 13-də



İşğalın yaratdığı problem

SƏHİFƏ 2-də



Paşinyanla Köçəryan üz-üzə

SƏHİFƏ 5-də



Əmlak bazarında "tilov effekti"

SƏHİFƏ 11-də



"Üç ağ"dan birinə olan sevgimiz

SƏHİFƏ 14-də



# Prezident Əbdüləziz bin Salman Əl Səudu qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Səudiyyə Ərəbistanı Krallığının energetika naziri Şahzadə Əbdüləziz bin Salman Əl Səudu qəbul edib.

Görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı Krallığı arasında dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən enerji sahəsində uğurla inkişaf etdiyi bildirilib.

Söhbət zamanı ölkələrimizin OPEC+ çərçivəsində əməkdaşlığının önəmi vurğulanıb. Azərbaycan ilə Səudiyyə Ərəbistanı Krallığının aparıcı "ACWA Power" şirkəti arasında ölkəmizdə bərpaolunan enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edilib və bu sahədə yaxşı potensialın olduğu bildirilib.

Görüşdə COP29-un Azərbaycanda keçirilməsinin əhəmiyyətinə toxunulub.



# Rövşən Nəcəf Oleksey Çernişov ilə görüşüb

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Ukraynanın "Naftoqaz" şirkəti Azərbaycan qazının Ukraynada saxlanılması imkanlarını müzakirə ediblər.

"Report" SOCAR-a istinadən xəbər verir ki, bu müzakirələr SOCAR prezidenti Rövşən Nəcəf və "Naftoqaz" şirkətinin baş icraçı direktoru Oleksey Çernişov ilə görüşdə aparılıb.

Görüşdə tərəflər neft-qaz sənayesində əməkdaşlığın perspektivləri, o cümlədən enerji keçidi, dekarbonizasiya və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Ermənistanın işğalı nəticəsində YARANAN PROBLEM

Qlobal miqyasda Azərbaycan minalanmış ərazilərinə görə ön sıradadır. Bu, məcburi köçkünlərin həmin ərazilərə qayıtmasına da problem yaradır.



İndiyədək Azərbaycanın işğaldan azad edilmiş 134 min hektardan çox ərazisi mina və partlamamış hərbi sursatlardan təmizlənib. Bu fikirlər Bakıda keçirilən "Minalardan Təmizləmə üzrə Avropa Qrupu Təşəbbüsü" tədbirində səsləndirilib.

## ZƏRƏRSİZLƏŞDİRİLƏN MİNALARIN SAYI AÇIQLANDI

Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov bildirib ki, Azərbaycan bu gün dünyada minalarla ən çox çirklənmiş ölkələrdən biridir:

"Bu günə kimi işğaldan azad edilmiş 134 min hektardan çox ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib. İlk növbədə nəqliyyat və enerji infrastrukturunun keçdiyi ərazilərdə, o cümlədən kənd təsərrüfatı təyinatlı torpaqlarda və yaşayış binalarının tikintisi nəzərdə tutulan ərazilərdə minalardan təmizləmə işləri aparılıb. Ümumilikdə 119 mindən çox mina və partlamamış hərbi sursat aşkar edilərək təhlükəsiz şəkildə zərərsizləşdirilib".

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VACİBDİR

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev isə vurğulayıb ki, minalardan təmizləmə baxımından beynəlxalq əməkdaşlıq vacibdir.

O, Avropa İttifaqına Azərbaycanın mina probleminə önəm verdiyinə görə təşəkkür edib: "Həqiqətən də, ərazilərin minalanması 30 il ərzində Ermənistan işğalı nəticəsində əmələ gələn problemdir. Qlobal miqyasda Azərbaycan minalanmış ərazilərinə görə ön sıradadır. Bu, məcburi köçkünlərin həmin ərazilərə qayıtmasına da problem yaradır. Ermənistanın basdırdığı saysız minalar 800 min məcburi köçkünün öz ərazisinə qayıtması və humanitar fəaliyyət baxımından böyük problemdir".

H.Hacıyev qeyd edib ki, bu sahədə beynəlxalq ictimaiyyətin köməyi vacibdir: "2024-cü ilin may ayında Zəngilanda mina ilə bağlı beynəlxalq tədbirin keçirilməsi planlaşdırılır. Mədəni irsimizə də mina problemi nəticəsində ciddi zərər dəyib".




## Aİ İKİ MİLYON AVRO AYIRACAQ

"Aİ minalardan təmizlənmə üçün Azərbaycana əlavə iki milyon avro ayırmağı planlaşdırır". Bu fikirlər isə Avropa Komissiyasının Genişlənmə və Qonşuluq Siyasəti üzrə Baş direktoru Qert Yan Kopmana məxsusdur.

"Minalardan təmizlənmə sahəsində potensialın daha da gücləndirilməsi məqsədilə əlavə texniki yardım göstərmək üçün bu il əlavə iki milyon avro qrant maliyyələşdirilməsinin ayrıldığını elan etməkdən çox məmnunam", - deyə Qert Yan Kopman bildirib. Onun sözlərinə görə, minatəmizləmə fəaliyyəti insan amili ilə sıx bağlıdır: "Mina hər kəsə, o cümlədən uşaqlara təsir edən, iqtisadi və sosial inkişafa mane olan, faciəvi nəticələrə səbəb olan və buna görə də prioritet pilləni daha qətiyyətli irəliləməyə ehtiyac olan bəladır".

Aİ Azərbaycanda minatəmizləmə sahəsində ən böyük donorlardan biridir. 2020-ci ilə qədər Avropa İttifaqı ölkəmizdə humanitar minatəmizləmə işlərinin asanlaşdırılması üçün 10 milyon avrodan çox qrant yardımı ayırıb. Ayrılan əlavə vəsait də nəzərə alınmaqla bu rəqəmin 13 milyon avroya yaxın artacağı gözlənilir.

## AVROPA İTTİFAQI AZƏRBAYCANA DƏSTƏK OLMAĞA HAZIRDIR

Aİ-nin Azərbaycandakı səfiri Peter Mixalko çıxışı zamanı deyib ki, Ermənistan-Azərbaycan münaqişəsinin əvvəlindən Azərbaycan vətəndaşları mina problemindən əziyyət çəkiblər.

"Bu gün artıq minalardan təmizlənmənin Azərbaycanın prioriteti olduğunu müşahidə edirik. Avropa İttifaqı olaraq biz bu yolda Azərbaycana dəstək olmağa hazırıq", - o qeyd edib.

P.Mixalko vurğulayıb ki, Aİ-nin Azərbaycanla əməkdaşlığında minalarla mübarizə prioritet sahədir. Minatəmizləmə davamlı regional inkişaf üçün vacibdir: "Bu, dinc, sabit Cənubi Qafqaz və Azərbaycan üçün vacibdir. Mən fürsətdən istifadə edərək ANAMA-ya və komandasına təşəkkür edirəm. Onlar özlərini qurban verməyi tələb edən bu işə baş vurublar. Aİ ölkələrinə də minatəmizləmədəki dəstəklərinə görə təşəkkür edirəm. Avropa komandasının mina əleyhinə təşəbbüsü bir çətir təşəbbüsüdür. Minaların təmizlənməsi insanların güzəranına mühüm təsir göstərir. Onların təbii resurslara çıxışını təmin edir".

Səfir həmçinin Aİ-nin Azərbaycan və Ermənistan arasında sülh quruculuğu prosesində maraqlı olduğunu söyləyib: "Minatəmizləmə sahəsindəki dəstəyimiz də sülhə, sabitliyə sadiqliyimizi göstərir. Aİ-nin roluna uyğun olaraq minalar əleyhinə mübarizəyə qlobal miqyasda dəstək göstərməyə çalışırıq. Bu sahədə Azərbaycanın ehtiyaclarının qarşılanmasına da artıq böyük töhfə vermişik".

## “SÜLH VƏ QLOBAL TƏHLÜKƏSİZLİK NAMİNƏ DİALOQ”A DƏSTƏK

# SÜLHÜ TƏŞVİQ EDƏN FORUM

**Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO-nun, BMT-nin Sivilizasiyalar Alyansının, Dünya Turizm Təşkilatı və ICESCO-nun tərəfdaşlığı ilə keçirilib. Tədbirdə 100-dən çox ölkəni təmsil edən 700 mötəbər qonaq iştirak edib.**




RÜSTƏM QARAXANLI

Azərbaycan dünyada sülh və dialoqun təşviqinə mühüm töhfə verən daha bir Foruma ev sahibliyi edib. “Sülh və qlobal təhlükəsizlik naminə dialoq” mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində Prezident İlham Əliyev də iştirak edib.

### MƏDƏNİ MÜXTƏLİFLİYİ GÜCLƏNDİRMƏLİYİK

Qeyd edək ki, hazırda dünyada müxtəlif etnik, milli, dini və siyasi kataklizmlərin yaşandığı məqamda belə bir Forumun təşkili Bakının dünyaya sülh və dialoq çağırışı kimi qiymətləndirilir. Müharibələr və münaqişələrin artdığı bir zamanda Azərbaycan bu sahədə özünün əsrlərə dayanan zəngin təcrübəsini dünyaya təqdim edir. Prezident İlham Əliyevin Forumdakı çıxışında əsas vurğulardan biri də məhz bu məqam idi. Dövlət başçısı bildirib ki, əsrlər boyu Azərbaycan mədəniyyətlərin qovuşduğu məkan olub. Bizim coğrafi mövqeyimiz, Şərq ilə Qərb arasında yerləşməyimiz, əslində, bu tendensiyaya imkan yaradıb: “Çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik olan Azərbaycan cəmiyyəti əsrlər boyu ən mühüm dəyərləri - tolerantlığı, qarşılıqlı hörməti, dostluq və tərəfdaşlıq kimi dəyərləri qoruyub. Əminəm ki, bir müstəqil ölkə kimi Azərbaycanın uğurlu inkişafını şərtləndirən məsələ məhz bunlardan ibarətdir. Azərbaycanda yaşayan insanlar, müxtəlif etnik qrupların və dinlərin təmsilçiləri bir ailə kimi yaşayırlar. Onlar Azərbaycanın dəyərli vətəndaşlarıdır, dövlətimizin, dövlətçiliyimizin əsl vətənpərvər insanlarıdır. Biz bu müsbət tendensiyaları, bu mədəni dialoqu, mədəni müxtəlifliyi gücləndirməliyik və əlbəttə ki, bütün bunlar bir çox əsrlərdən gələn nemətdir”.



### “BİZ QƏTİ ŞƏKİLDƏ ÇOXTƏRƏFLİLİYƏ SADİQİK”

Bu gün dünyada mədəniyyətlərarası dialoqun təşviqində, sülh və sabitliyin təminində əsas amillərdən biri də təbii ki, çoxtərəflilik prinsipidir. Azərbaycan bu prinsipi çox uğurla tətbiq edir. Biz bunun Bakının Qoşulmama Hərəkatına sədrliyi dövründə də əyani şahidi olduq. Prezident İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycan öz təcrübəsini göstərib: “Biz qəti şəkildə çoxtərəfliliyə sadiqik. Biz çoxtərəflilik dəyərlərini 120 ölkənin üzv olduğu Qoşulmama Hərəkatında 2019-cu ildən bu ilin əvvəlinə qədər təşviq etmişik. O, BMT-dən sonra ikinci ən böyük təşkilatdır və həmçinin bununla bağlı yekdil qərarımız oldu, sədrliyimiz yekdil qərarla əlavə bir il də artırıldı. Təbii ki, Qoşulmama Hərəkatının vacib təməl dəyərləri məhz suverenlik, ölkələrin ərazi bütövlüyü, daxili işlərə qarışmamaqdır. Biz həmin Hərəkatın təsisatlanması seqmentinin gücləndirilməsinə çalışdıq və bununla bağlı daxildə şəbəkə yaratdıq, qadınların və gənclərin təşkilatlarını təsis etdik. Bütün bunlar məhz Azərbaycan tərəfindən yaradılıb. Əminəm ki, Qoşulmama Hərəkatının təsisatlanması istiqamətində inkişafı gələcəkdə də davam edəcək”.



## BİZ ƏDALƏT NAMİNƏ DANIŞIRIQ

Hazırda ölkəmiz dünyada neokolonializm meyllərinin qarşısının alınması, bu siyasətin qurbanına çevrilən xalqların səsinin eşidilməsi istiqamətində də fəal siyasət yürüdür. Prezident İlham Əliyev Forumdakı çıxışında bu məsələyə də ətraflı toxunub. Onun sözlərinə görə, Qoşulmama Hərəkatının üzvlərinin əksər hissəsinin çox ağır, qaranlıq müstəmləkə tarixçəsi olub və buna qarşı mübarizənin aparılması o deməkdir ki, biz buna inanırıq: “Çünki biz ədalət naminə danışırıq, çünki biz beynəlxalq hüquq naminə danışırıq. Yəni, biz belə bir məsələyə imkan verə bilmərik ki, indi - XXI əsrdə bəzi Avropa ölkələri digər xalqlara müstəmləkə kimi yanaşsın. Təbii ki, biz öz səsimizi ucaltdıqda, Hərəkatda sədrliyimiz zamanı bu məsələni qaldırdıqda bu, onunla bağlı deyildi ki, biz hansısa ölkələrə qarşı idik. Biz, sadəcə, ədalətə, beynəlxalq hüquqa bağlı idik. Bu, yaddan çıxmalı deyil. Dünya məcburi assimilyasiyaya aparan belə bir iyrənc neokolonializm təcrübəsinə göz yummamalıdır. Ondan çox fransız dənizaşırı ərazisində həyata keçirilən məcburi assimilyasiya əsla qəbuledilməzdir və buna son qoyulmalıdır. Bu səbəbdən Avropa təsisatları bəzən çalışırlar Avropada olmayan ölkələrin daxili işlərinə müdaxilə etsinlər. Amma Avropa Parlamenti və AŞPA bununla bağlı səsini çıxarmır. Çünki yeni müstəmləkə tendensiyaları yenə də davam edir. Onda siz nəyə görə tənqid etmirsiniz? Nəyə görə sanksiyalar tətbiq etmirsiniz? Nəyə görə susursunuz? Bəli, biz sədr olaraq Hərəkat daxilində bu işi gördük”.

## ÖZÜMÜZÜN YAŞIL GÜNDƏLİYİMİZ VAR

Ölkəmiz bu il daha bir möhtəşəm tədbirə - COP29-a ev sahibliyi edəcək. Sülh və sabitliyi, dialoqu şərtləndirən iqlim dəyişmələri kimi beynəlxalq səviyyəli aktual bir problemin təfərrüatları, həlli yolları Bakıda müzakirə olunacaq. Forumdakı çıxışında bu məsələyə də toxunan Prezident İlham Əliyev bildirib ki, maliyyə məsələsi COP29-un əsas mövzusu olacaq: “Lakin bizə həmrəylik və qarşılıqlı etimad lazımdır. Biz bir-birimizi günahlandırmalı deyilik ki, kim planetə daha çox zərbə vurub. Yaxud da qlobal istiləşməyə görə kimin daha çox məsuliyyət daşıması ilə bağlı mübahisə etməməliyik. Əgər biz bu davranışı davam etdirsək, onda bunun sonu faciə olacaq”. Dövlət başçısı bildirib ki, bizim yaşıl gündəliyimiz var və biz buna COP29-a ev sahibliyi etmək şərəfinə layiq görüləndən xeyli əvvəl başlamışıq: “2027-ci ilə qədər bizdə 2 qiqavat Günəş və külək enerjisi stansiyaları işə düşəcək və 2030-cu ilə qədər əlavə 5 qiqavat da istismara veriləcək. Bunun sayəsində bərpaolunan enerjini elektrik enerjisi istehsalında istifadə etmək üçün bizə imkan yaranacaqdır”.

Qeyd edək ki, Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO-nun, BMT-nin Sivilizasiyalar Alyansının, Dünya Turizm Təşkilatı və ICESCO-nun tərəfdaşlığı ilə keçirilib. Tədbirdə 100-dən çox ölkəni təmsil edən 700 mötəbər qonaq iştirak edib.

AZƏRBAYCANLA ERMƏNİSTAN ARASINDAKI DANIŞIQLARDA ÜMİDVERİCİ İŞARTILAR VAR

# VASİTƏÇİSİZ ƏLDƏ EDİLƏN UĞURLAR









**Prezident İlham Əliyev Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda bildirib ki, Azərbaycan və Ermənistan vasitəçilər olmadan sülhə doğru gedir. Çünki adlarını vasitəçi qoyanlar bizim bölgəyə öz fərdi, siyasi və iqtisadi maraqları naminə müdaxilə etmək istəyirlər.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, sülh prosesinin irəlilədilməsi istiqamətində ümidverici addımlar atılmaqdadır. İki ölkə arasında birbaşa danışıqlar fonunda əldə edilmiş razılaşmalar bu qənaətə gəlməyə əsas verir. Bakının humanist qərarı ilə ölkəmizə qarşı müəyyən cinayətlərdə ittiham olunan erməni hərbçilər azad edildi. COP29 tədbiri ilə bağlı qarşılıqlı anlaşma əldə olundu. Daha sonra sərhədlərin müəyyənləşdirilməsi istiqamətində birgə komissiyaların ardıcıl görüşləri keçirildi. Bütün bunlar ilkin addımlar kimi dəyərləndirilsə də, vasitəçilərsiz danışıqlar formulunun daha uğurlu seçim olduğunu isbatlayır. Azərbaycana məxsus dörd kəndin geri qaytarılması ilə Qazax-Tovuz istiqamətində demarkasiya və delimitasiyaya start verilməsi, prosesin qarşılıqlı anlaşma və beynəlxalq hüquq çərçivəsində irəlilədilməsi tərəflərin heç bir kənar müdaxilə olmadan razılığa gələ biləcəyini bütün dünyaya bir daha nümayiş etdirdi. Artıq bu format beynəlxalq səviyyədə də qəbul edilir. Ayrı-ayrı beynəlxalq təşkilatların və dövlətlərin məlum proseslə bağlı dəstək bəyanatlarında biz bunu müşahidə edirik.

## "CƏNUBİ QAFQAZDA BUNA İCAZƏ VERMƏYƏCƏYİK"

Prezident İlham Əliyev də Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda bu məsələyə toxunub. Dövlət başçısı bildirib ki, ötən ilin sentyabr ayında biz ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa edəndən sonra Ermənistanın dırnaqarası qarantorları tərəfindən siyasi hücumlara məruz qaldıq: "Buna baxmayaraq, biz yenə sülh təklif etdik. İndi isə biz, əslində, müsbət tendensiyaya və sülhə doğru gedirik, sərhədlərin delimitasiyası başlayıb. Nəinki delimitasiyası, hətta demarkasiyası başlayıb. Mən burada çıxış etdiyim zaman bu iş gedir. Buna iki ölkə tərəfindən hər hansı bir vasitəçi olmadan nail olunub. Bu, bir daha onu göstərir ki, bizə vasitəçi lazım deyil. Xüsusən də o insanlar ki, məhz öz məqsədlərini güdürlər və yardım etmək istəmirlər. Onlar bizim bölgəyə öz fərdi, siyasi və iqtisadi maraqları naminə müdaxilə etmək istəyirlər. Onlar həmin alova yenidən odun atmaq istəyirlər. Biz Cənubi Qafqazda buna icazə verməyəcəyik, imkan verməyəcəyik. Otuzillik toqquşmadan sonra Ermənistan da aydın şəkildə anlayır ki, biz Cənubi Qafqazda sülh istəyirik və sülh bu bölgədə yalnız Azərbaycanla Ermənistan arasında normallaşma vasitəsilə həll oluna bilər".



## YALNIZ ÖZ MARAQLARINI DÜŞÜNƏNLƏR

Dövlət başçısının da vurğuladığı kimi, post-müharibə dövrünün reallıqları sülh prosesinin irəlilədilməsi baxımından yeni yanaşmalar tələb edir. Azərbaycan 30 il ərzində məhz vasitəçilərə ümid olaraq münaqişənin sülh yolu ilə həlli üçün danışıqlar aparıb. Lakin bu gün həmin sonsuz danışıqların pərdəarxası məqamları açıqlandıqca, vasitəçilik missiyasını üzərinə götürənlərin əsl niyyətlərinin nədən ibarət olduğu açıq şəkildə görünür. Əslində onlar bölgədə qalıcı sülh yox, əksinə, daim müdaxilə imkanlarına yol açan münaqişəli vəziyyətin qalması üçün vasitəçilik ediblər. Onların geosiyasi maraqları münaqişəli vəziyyətdən illərlə əziyyət çəkən milyondan artıq soydaşımızın iztirablarından üstün tutulub. Sonunda Azərbaycan bu ədalətsizliyə özü son qoymaq məcburiyyətində qalıb. Beynəlxalq hüququ, BMT qətnamələrini əsas tutaraq suverenliyini, ərazi bütövlüyünü bərpa edib.

## Vasitəçilərsiz danışıqlar formulu

Təəssüf ki, müharibədən dərhal sonra Bakının sülh təşəbbüsü ilə çıxış etməsi lazımınca qiymətləndirilmədi. 2022-ci ildə iki ölkə arasında sülh sazişinin imzalanacağına dair böyük ümidlər olsa da, başda Fransa olmaqla bu prosesin reallaşmaması üçün əllərindən gələni etdilər. Brüssel, Moskva və Vaşinqton formatları məhz bu səbəbdən özünü doğrultmadı. Biz 30 illik işğal dövründə vasitəçi olanların yenidən Cənubi Qafqazı qaynar qazana çevirmək planlarının dəyişmədiyinin şahidi olduq. Təbii ki, rəsmi Bakı bu proseslərin qarşısını həm hərbi-siyasi, həm də diplomatik yollarla alaraq, sülh qatarının onun müəyyənləşdirdiyi istiqamətdə irəliləməsinə çalışır. Bu işdə uğur əldə etdiyimizi əminliklə söyləyə bilərik. Dörd kəndin işğaldan azad edilməsi, rus sülhməramlılarının ərazilərimizi tərk etməsi belə qənaətə gəlməyə əsas verir.

### QAZAXISTAN İKİTƏRƏFLİ GÖRÜŞ ÜÇÜN SEÇİLƏN MƏKANDIR

Qarşıda Qazaxıstan görüşü var. Hər iki tərəf xarici işlər nazirləri səviyyəsində bu görüşün təşkilinə razılıq verib. Bir məqam xüsusi qeyd edilməlidir ki, Qazaxıstan danışıqlar prosesində vasitəçi deyil. Sadəcə, ikitərəfli danışıqlar formatının davamlı olması üçün seçilən bir məkandır. Bu ölkənin növbəti görüş yeri kimi seçilməsi də Azərbaycanın diplomatik uğuru sayılmalıdır. Çünki Qazaxıstan hazırda konfrantasiya halında olan Qərb və Rusiya ilə çox yaxşı münasibətlərə malikdir. Bu, sülh prosesini nəzarəti altına almağa çalışan böyük güclərin Qazaxıstan görüşünə qısqanclıqla yanaşmaq ehtimalını əhəmiyyətli dərəcədə azaldır. Vasitəçilərsiz danışıqlar formulunun daha uğurlu seçim olduğunu artıq İrəvan hakimiyyəti də anlayır. İstər son aylarda səsləndirilən bəyanatlar, istərsə də kəndlərin qaytarılması və sərhədlərin müəyyənləşdirilməsi istiqamətində sülhə xidmət edən addımların atılması ümidvericidir. Bununla belə, son üç ildə yaşanan proseslər bir daha təsdiqləyir ki, sülh sazişinin tezliklə imzalanması Ermənistan rəhbərliyinin siyasi iradəsindən, Fransa və digərlərinin pozucu oyunlarından uzaq durmaqla ikitərəfli vasitəçilərsiz danışıqlar formatına sadiqliyindən asılıdır.

# PAŞİNYANLA KÖÇƏRYAN YENİDƏN ÜZ-ÜZƏ



İşğal altında qalan dörd kəndimizin geri qaytarılması və həmin istiqamətdə sərhədlərin müəyyənləşdirilməsinə başlanılması Ermənistanda etiraz aksiyalarına səbəb olub. Bu aksiyalar keçmiş prezident Robert Köçəryan və baş nazir Nikol Paşinyanı yenidən üz-üzə gətirib.

FUAD ABASOĞLU

Ermənistanın sabiq prezidenti Robert Köçəryan dörd kəndin Azərbaycana qaytarılmasından sonra Tavuş rayonunda baş verən kiçikmiqyaslı aksiyalardan istifadə etmək qərarına gəlib. Uzun müddətdir gizli ittifaq qurduğu Tavuş yeparxiyasının rəhbəri Baqrat Srbazanı da bu oyuna qoşan siyasətçi İrəvan və digər bölgələrdə yolları kəsməklə məşğul olur. Bununla da Köçəryan ölkədəki qarışıqlıqdan, xaosdan istifadə etmək, xalqı küçələrə tökmək, hakimiyyəti devirmək üçün növbəti dəfə şansını sınamaq qərarına gəlib.

### KİLSƏ İLƏ İTTİFAQ

Tavuş rayonunun kəndlərində davam edən etiraz aksiyalarının rəhbərinin Baqrat olması diqqətdən yayınmayıb. Uzun müddətdir baş nazirə qarşı kəskin çıxışlar edən din xadiminin Robertlə də əlaqəsi üzə çıxıb. Bir neçə il əvvəl Paşinyanın təqiblərindən qurtulmaq üçün kilsəyə sığınan və bu vasitə ilə ölkəni tərk etməyə çalışan eks-prezident 2021-ci il 17 fevral tarixində keçirilən mətbuat konfransında bəyan etdi ki, prezidentliyə namizəd irəli sürmək üçün ən yaxşı variant Erməni Apostol Kilsəsinin ruhani liderlərindən biri ola bilər, çünki o, qərəzsiz və ümumbəşəri hörmətə malik olacaq. Bu açıqlama bəzi ruhaniləri həvəsləndirmişdi. Bir sıra siyasətçi və şərhçinin də bu məsələdə Barqat Srbazanın adını hallandırması, sonuncunun iştahasını əməlli-başlı artırmışdı. 2021-ci ildə Robert Köçəryan tərəfdarları da ölkədəki xaosdan istifadə edərək, hakimiyyətə qayıdacaqlarına ümid edirdilər. Bu səbəbdən də tərəflər arasında gizli görüş keçirilir və razılaşdırılır ki, əgər Köçəryan hakimiyyətə qayıtsa, Baqrat katalikos postuna yiyələnəcək. Amma tərəflərin planı suya düşdü. Görünür, gizli ittifaq bu dəfə də vəzifə və mövqe uğrunda "döyüşə atılıb".

## KÖÇƏRYANIN DƏSTƏSİ İŞ BAŞINDA

Köçəryan texnoloqları hakimiyyəti devirmək üçün "dahiyanə" üsula əl atmaq qərarına gəliblər. "Ermənistan" bloku və Daşnaksütyun fəalları ilə gizli razılaşmadan sonra kiçik qruplarla yolları bağlamaq, ölkədə xaos yaratmaq ideyası ortaya atılıb. Maraqlıdır ki, hər qruplaşmaya müxalifətin iki deputatı rəhbərlik edib və sayı 10-20 nəfər arası olan şəxslər müxtəlif üsullarla yolları bağlamağa cəhd göstəriblər. Hədəf İrəvanın mərkəzi küçələri və dövlətlərarası şose yolları olub. Bununla da şəbəkə və təşkilatlanmış etiraz aksiyası görüntüsü yaradılmağa çalışılıb. Maraqlıdır ki, bütün xəbərlər əsasən müxalifətin KİV-lərində yayımlanıb və küçələrə cəmi 10-20 nəfər çıxsa da, sayı izdiham kimi qələmə vermək siyasəti yürüdülüb. Təşkilatçılar bununla evlərində oturan sadə erməni vətəndaşını təxribatlara cəlb etmək,



aksiyanın miqyasını böyütmək niyyəti güdüblər. Amma plan əks-effekt verib.

### EKS-PREZİDENTİN "KOMANDASI"NIN İFŞASI

Fraksiyanın təşkil etdiyi aksiyalarda Karen Köçəryan da gözə dəyib. Bu şəxs 2021-ci il parlament seçkilərində Robert tərəfindən işə götürülüb və seçkiöncəsi kampaniyanı idarə edib. Onun yanında isə David Saakyants olub. Bu şəxs isə Köçəryan komandası üçün hökumət əleyhinə kampaniyaya rəhbərlik edir və bu işdən külli miqdarda pul qazanır. Noyemberyan-Baqratşen yolunda təxribata cəhd edən və polis tərəfindən saxlanılan şəxsin axtarışda olan cinayətkar olduğu üzə çıxıb. İki istiqamətdə aksiyaçılara qoşulan, özünü general kimi təqdim edən şəxsin hərbçi olmadığı da məlum olub. Başqa bir fakt: İrəvan küçələrinin birində yolu bloklamağa çalışan kiçik qrupun fotoları növbəti gün başqa rakursdan başqa bir aksiya kimi müxalif KİV-də təqdim edilib.

Bir neçə gün əvvəl Ermənistan parlamentinin qarşısında baş verən kiçik aksiya isə elə erməni KİV tərəfindən ifşa edilib və lağa qoyulub. Məlum olub ki, etiraza rəhbərlik edən Ovanes Şaqinyan İrəvanın Ərəbkir rayonunun keçmiş icra başçısı, eyni rayonun keçmiş polis rəisi və Milli Olimpiya Komitəsinin keçmiş üzvüdür. Bu şəxs bu vəzifələrdə Köçəryanın hakimiyyəti illərində çalışıb.

### PAŞİNYAN HƏRƏKƏTƏ KEÇDİ

Təbii ki, bu hadisələrin Köçəryan tərəfindən idarə olunması hakimiyyət tərəfindən cavabsız qala bilməzdi. Elə bu səbəbdən də Ermənistanın baş prokuroru Anna Vardapetyan bəyan edib ki, ikinci prezident Robert Köçəryan və "Çiçəklənən Ermənistan" partiyasının lideri Qaqik Tsarukyanın onlarla daşınmaz əmlakı və yüz milyonlarla dollar vəsaiti qanunsuz olduğu üçün müsadirə ediləcək. Təkcə Köçəryan və onun ailəsinin yeddi üzvünün 25 daşınmaz əmlakı, beş nəqliyyat vasitəsi, dörd milyon dollarlıq səhmi əlindən alınmalıdır. Prokurorluq Köçəryanın Ermənistanda və xaricdə 16 hüquqi şəxsin fəaliyyətində iştirakına xitam verməyə çalışır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# AVROPADA FRANSIZ-ALMAN DUELİ



Almaniya ilə Fransa arasında yüz ildən çoxdur davam edən rəqabət özünün yeni mərhələsinə qədəm qoyub. Tərəflər münasibətləri aydınlaşdırmaq üçün görüşmək qərarına gəliblər. Mayın əvvəlində Fransa xarici işlər naziri Stefan Sejurne, ayın sonunda isə prezident Emmanuel Makron Almaniyaya səfər edəcək.



AZƏR NURİYEV



Fransa Emmanuel Makronun yarıtmaz siyasəti nəticəsində beynəlxalq aləmdə nüfuzunu, təsir imkanlarını itirməkdədir. İndi də əzəli və əbədi rəqibi Almaniya ilə münasibətlərində ciddi problemlər yaşanır. Qonşu Almaniya ilə yüz ildən artıqdır davam edən rəqabət son illər özünü daha qabarıq göstərir. Avropa İttifaqının iki qüdrətli dövləti arasında münasibətlər xüsusilə Ukrayna məsələsi üzündən gərgindir. Parisin NATO-nun Ukraynaya qoşun göndərməsi təklifinə Berlinin mənfi cavab verməsi iki ölkə rəsmiləri arasında üstüörtülü atmacalara rəvac verib. Tərəflər münasibətləri aydınlaşdırmaq üçün görüşmək qərarına gəliblər. Mayın əvvəlində Fransa xarici işlər naziri Stefan Sejurne, ayın sonunda isə prezident Emmanuel Makron Almaniyaya səfər edəcək. Fransa XİN rəhbəri “Welt” qəzetinə deyib: “May ayı Fransa-Almaniya münasibətlərinin kulminasiya nöqtəsi olacaq. Emmanuel Makron Almaniyaya dövlət səfəri ilə gedəcək”.

Xatırladaq ki, Fransanın hazırkı prezidentinin təklifi ilə 2019-cu ildə Fransa ilə Almaniya arasında əməkdaşlıq və inteqrasiya haqqında saziş imzalanmışdı. Ölkələr təkcə siyasətdə deyil, həm də iqtisadiyyat və müdafiə sahələrində də ikitərəfli əməkdaşlıq etmək öhdəliyi götürüblər. Lakin işlər rəvan getmir. Problemlər təkcə ciddi siyasi və iqtisadi çağırışlarla bağlı deyil. Onların kökündə keçmiş kansler Angela Merkelin gedişi və Ukrayna böhranının kəskinləşməsi durur.

**MAKRON ALMANİYANI QORXAQ ADLANDIRDI**

Fransa liderinin bundan əvvəlki NATO qoşunlarının Ukraynaya yeridilməsi ilə bağlı təklifinə Berlin etiraz edib. Fransa prezidenti də buna “Avropa qorxaq olmamağın lazım olduğu bir anla üz-üzədir”, deməklə cavab verib. Bu cavab Berlində “təhqir” kimi qəbul edilib. Almaniyanın müdafiə naziri Boris Pistorius Makrona verdiyi cavabda “bizim cəsarətlə bağlı müzakirələrə ehtiyacımız yoxdur”, - deyib.

Makronun bəyanatı Almaniyanı təxribata çəkməyə hesablanıb. Amma almanlar təhqir olunsalar belə, Makrondan fərqli olaraq, cavabı ağılla verirlər. Berlin Avropanın diplomatik sükançısı rolunu Parisin əlindən almaq istəyir. Böyük Britaniya da Fransanı bir dövlət kimi çökdürməyə çalışır və buna müəyyən dərəcədə nail də olur.

“DW” nəşrinin məlumatına görə, Almaniya hökuməti Moskvaya qarşı Avropa sanksiyalarının 14-cü paketinə Rusiyanın mayeləşdirilmiş təbii qazının (LNG) Avropa İttifaqına idxalına embarqo qoyulması təklifini dəstəkləyib.

## Paris və Berlini üz-üzə qoyan ölkə

Almaniyanın iqtisadiyyat naziri Robert Habek Berlinin mövqeyini təsdiqləyib: “Bəli, mən bunu dəstəkləyirəm, Almaniyanın artıq Rusiyanın mayeləşdirilmiş təbii qazına ehtiyacı yoxdur”. Rusiya hazırda Aİ ölkələrinə LNG tədarükünə görə ABŞ-dən sonra ikinci yerdədir. Onun ümumi idxalda payı 16 faiz təşkil edir.

Bəs Almaniya ilə Fransa arasındakı bu gərginlik nə ilə yekunlaşacaq? Müşahidəçilər hesab edirlər ki, əslində iki ölkə arasında gərginlik daha çox Birləşmiş Ştatların maraqlarına xidmət edir. Bu ölkə hər vəchlə Avropanın Rusiyadan qaz asılılığını azaldıb, boşalmış mövqeyi özü tutmağa çalışır. Bu yolla da ABŞ Avropa üzərində siyasi nəzarətini daha da gücləndirməyi hədəfləyib.



## FRANSA PREZİDENTİ AVROPADA DOMİNANT OLMAĞA ÇALIŞIR

“The Telegraph” qəzeti Yelisey sarayındakı və Bundestaqdakı mənbələrə istinadən yazır ki, Emmanuel Makron həm beynəlxalq, həm də ölkə daxilində dəyişən siyasi mənzərə fonunda Avropada dominant qüvvə kimi görünmək istəyir. Nəşr yazır ki, “Makron Avropa siyasətinin franko-alman “mühərrikinə” açar atan daha ehtiyatlı Almaniya kansleri Olaf Şoltsla hakimiyyət uğrunda mübarizə aparır. Mübarizənin kökündə isə Fransa prezidentinin birdən-birə Ukrayna göyərçinindən şahinə çevrilməsi durur”. Nəşrin mənbəsinin sözlərinə görə, Fransa prezidenti Ukrayna ilə bağlı Avropanın strateji lideri rolunu bərpa etmək niyyətində olub. Mənbə əlavə edib: “Biz əsl franko-alman duelinin ortasındayıq”.

Beləliklə, Makronun səfəri kəskin siyasi ziddiyyətləri minimuma endirmək cəhdi kimi görünə bilər. Ancaq heç kimin bu barədə xüsusi illüziyaları yoxdur. Şolts Makronun şəxsi dostluq münasibətləri saxladığı və demək olar ki, hər gün yazışdığı Angela Merkeldən fərqlidir. Fransanın “Fiqaro” qəzetinin səfər ərəfəsində yazdığı kimi, qonşu ölkələr arasında “donmuş münasibətlər” - geostrategiyada köklü dəyişikliyin nəticəsi - çoxdan başlamış və Avropanın simasını dəyişməyə məhkum olan “qitə sürüşməsi”dir. Ən gözəl şərhi isə “Neue Zurcher Zeitung” qəzetinin analitiki Ulrik Spek səsləndirib: “Əsl səbəb odur ki, bu ölkələrin hər ikisi Avropa İttifaqında ilk skripkanı çalmaq üçün yarışır”. Ümumilikdə isə Fransanın bugünkü siyasəti reallığa uyğun deyil. Afrikada itirilən mövqelər, Almaniya ilə fikir ayrılıqları ölkəni ciddi problemlərə sürükləyir.

# TURİZM SEKTORUNDA CANLANMA




Dünya üzrə turizm bazarı 2022-ci ildə təxminən 70 faizə yaxın, 2023-cü ildə 95 faiz bərpa olunub. 2024-cü ildə isə bu sahənin tamamilə bərpa olunacağı proqnozlaşdırılır. Azərbaycana gələn turistlərin sayında da əhəmiyyətli artım müşahidə edilir.

**SEVİNC ABBASOVA**

Azərbaycanda turizm sənayesi yenidən canlanır. Pandemiyadan sonra turizm sektorunda statistik göstəricilərin müsbətə doğru dəyişməsi bu sahədə canlanmanın başladığına ümidləri artırır.

Rəsmi məlumatlara görə, bu ilin ilk rübündə Azərbaycana gələn turistlərin sayı 39,2 faiz artaraq 513,5 minə çatıb. Gələn turistlərin artım dinamikasında Asiya ölkələri öndədir. Belə ki, bu müddətdə Çindən gələnlərin sayı 3,7 dəfə, Hindistandan - 2,4 dəfə, Qazaxıstandan - 2,4 dəfə, Bəhreyndən - 2,1 dəfə, Səudiyyə Ərəbistanından - 2,0 dəfə, Qırğızıstandan - 2,0 dəfə artıb. Bununla belə, Azərbaycana gələn turistlərin yarıdan çoxu üç qonşu ölkənin payına düşür. Gələnlərin 28,7 faizi Rusiya, 19,3 faizi Türkiyə, 10,3 faizi İran vətəndaşlarıdır.

Maraqlıdır, görəsən, turizm sektorunda artım dinamikasını qorumaq üçün konkret hansı məqamlara diqqət yetirilməlidir? Bu istiqamətdə əlavə hansı addımların atılmasına ehtiyac var?

### AZƏRBAYCAN CƏLBEDİCİ ÖLKƏLƏRDƏN SAYILIR

Turizm məsələləri üzrə ekspert Ceyhun Aşurov bildirib ki, ötən illərlə müqayisədə bu ilin ilk rübündə Azərbaycana gələn turistlərin sayında təxminən 40 faizə yaxın artımın qeydə alınması müsbət tendensiyadan xəbər verir. Onun sözlərinə görə, hazırda Azərbaycan gəlmə turistlər üçün cəlbedici ölkələrdən sayılır: “Demək olar ki, dünya üzrə turizm bazarı 2022-ci ildə təxminən 70 faizə yaxın, 2023-cü ildə 95 faiz bərpa olunub. 2024-cü ildə isə bu sahənin tamamilə bərpa olunacağı proqnozlaşdırılır. Düzdür, Azərbaycan bu göstəricilərdən nisbətən geri qalır, amma yenə də artım müşahidə olunur. Bu, gözlənilən vəziyyətdir. Çünki Azərbaycanda quru sərhədlər bağlıdır, turistlər ölkəmizə ancaq hava yolu ilə gəlirlər”.

### “HAVA LİMANLARI SƏMƏRƏLİ FƏALİYYƏT GÖSTƏRMƏLİDİR”

Mütəxəssis vurğulayıb ki, ölkəmizə daha çox turistin cəlb edilməsi üçün mövcud imkanlar daha da genişləndirilməlidir: “Bu gün Azərbaycanda təhlükəsizlik yüksək səviyyədə təmin olunub. Amma bu dinamikanı qorumaq üçün həm də əlavə addımların atılmasına ehtiyac var. Məsələn, ölkədəki beynəlxalq statusa malik hava limanları daha səmərəli fəaliyyət göstərməlidir. Qalma yerlərinin artırılması üçün təşviqat işləri aparılmalıdır. Eyni zamanda, bilet qiymətləri optimallaşdırılmalıdır. Əgər bu istiqamətdə konkret addımlar atılarsa, gediş-gəliş daha çox olar. İstənilən halda, nəqliyyat qiymətləri turizm paketlərinin içərisində xüsusi əhəmiyyətə malikdir. Yəni başqa yerlərə səfər etmək üçün əsas səbəblərdən biri də həmin ölkənin əlçatanlığıdır. Burada tək viza prosedurlarının sadə yolla əldə edilməsi deyil, eyni zamanda nəqliyyatın daha uyğun qiymətə ərsəyə gəlməsidir. Artıq bir neçə ölkə ilə viza ləğv olunub, proses sadələşdirilib. Bu qərar daha çox ölkəni əhatə etməlidir. Əsas hədəf bazarlarından Azərbaycana gəlişi təmin etmək üçün viza ləğv olunmalıdır. Ona görə ki, viza rüsumu o dərəcə də gəlir gətirmir”.

### TURİSTLƏR UZAQ RAYONLARA GETMƏK İSTƏMİRLƏR

Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının (ATAA) İdarə Heyətinin sədri Göydəniz Qəhrəmanov hesab edir ki, 2024-cü il ölkəmizdə turizm sektorunun tamamilə bərpası ili kimi yadda qala bilər: “Cari ildə ölkəmizə gələn turistlərin sayında ciddi artım müşahidə olunur və bu hal bizi də sevindirir. Bu dinamikanı qorumağa çalışmalıyıq. Bunun üçün ilk növbədə logistika problemləri həllini tapmalıdır. Məsələn, regionlara sürət qatarlarının olması çox vacibdir. Elə rayonlar var ki, uzaqdır, turistlər getmək istəmirlər. Halbuki həmin rayonların təbiəti və qonaqpərvərliyi digər rayonlardan zəif deyil. Çox istərdik ki, sürət qatarlarının əhatəsi genişlənsin. Düzdür, bu, bir az vaxt ala bilər və böyük maddi vəsait tələb edir. Amma digər tərəfdən də turistlərin sayında artım olacaq və bu da öz növbəsində pul axınıdır. Gələcəkdə çəkilən xərclər gəlirlərlə əvəzlənəcək”.

## QİYMƏTLƏRİN OPTİMALLAŞDIRILMASINA EHTİYAC VAR

Milli Məclisin üzvü, iqtisadçı deputat Vüqar Bayramov bildirib ki, pandemiyadan öncə Azərbaycanın illik turizm gəlirləri 2,7 milyard dollara yaxın olub: “2024-cü ilin ilk rübündə ölkəmizə gələn turistlərin sayında artım müşahidə olunsa da, daha qısa zamanda pre-pandemiya göstəricilərinə çatmaq prioritet olaraq qalmaqdadır. Çünki turizm neftdən sonra Azərbaycana ən çox valyuta gətirən sektordur. Bu sektor həmçinin məşğulluğa da xüsusi töhfə verir. Bu baxımdan, turizm infrastrukturunun daha da inkişaf etdirilməsi və qiymətlərin optimallaşdırılması Azərbaycana daha çox turistin gəlməsinə imkan yarada bilər”.

### HƏDƏF İLDƏ 3,8 MİLYON NƏFƏRƏ YAXIN TURİSTDİR

Dövlət Turizm Agentliyi isə 2028-ci ilədək Azərbaycana səfər edən əcnəbi vətəndaşların sayını ildə 3,8 milyon nəfərə çatdırmağı hədəfləyir. Agentliyin Media və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Gülnar Mustafayeva deyib ki, yay mövsümü Azərbaycanda turizmin ən aktiv dövrü hesab edilir: “Bu da daha çox turistik səfər deməkdir. Bu baxımdan qarşıdakı mövsüm özündə ölkəmizdə turizmin bərpası istiqamətində mühüm imkanları ehtiva edir. Bununla belə, gəlmə statistikasında daha ciddi fərqlə nəticələrə nail olmaq üçün ənənəvi və yeni bazarlarda təbliğat işini gücləndirmək, ölkəmizə birbaşa uçuşların sayının artırılması, ümumən ölkənin daha əlçatan olması kimi amillərin önəmi qeyd olunmalıdır. Geniş planda əsas hədəf 2028-ci ilədək Azərbaycana səfər edən əcnəbi vətəndaşların sayını ildə 3,8 milyon nəfərə, daxili turizmdə səfərlərin sayını isə ildə 7,3 milyona çatdırmaqdır”.

Qurum rəsmisi vurğulayıb ki, turizm imkanlarının təbliği və ölkənin tanıdılması üçün il ərzində müxtəlif beynəlxalq sərgilərdə iştirak edilir, hədəf ölkələrdə tədbirlər, təqdimatlar təşkil olunur.




**Fotolar:** Sabir Məmmədov - Firudin Səlimov/Global Media Group

MƏKTƏBDƏ Kaspi 4 MAY ŞƏNBƏ 2024 9

“AKTYOR QƏHRƏMAN DEYİL, ONUN İŞİ OBRAZI CANLANDIRMAQ VƏ TAMAŞAÇIYA ÇATDIRMAQDIR”

# “KİNOYA ÇƏKİLMƏK HƏVƏSİM HƏLƏ ÖLMƏYİB...”

HAZIRLADI
TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

**Rasim Balayev:** “Bu da bir tale, şansdır. Mən yatdım-durdum, gördüm ki, məşhur adamam. Bircə rolla məşhurlaşdım. Bu, hər adama qismət olmur”.

“Çox görüşlərdə oluram. Həmişə müxtəlif auditoriyalara dəvət edirlər. Amma hər görüşdən əvvəl adam həyəcanlanır. Məncə, bu, məsuliyyət hissidir...” Xalq artisti, Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Rasim Balayev “Məktəbdə” layihəsində qonaq olarkən həyəcanını belə ifadə etdi.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin “Kaspi” qəzeti ilə birgə reallaşdırdığı layihənin əhəmiyyətini isə qonaq xüsusi vurğuladı.

### “İNDİ GÖRÜRƏM Kİ, SƏHV ETMİŞİK...”

“Məktəb görəndə oxuduğum illər yadıma düşür. Amma biz belə məktəblərdə oxumamışıq. Soyuq, təmirsiz otaqlarda dərs keçirdik. Biz oxuyan vaxtlarda belə yaxşı şərait yox idi: təmirli bina, müasir avadanlıq, işıqlı otaqlar... Belə bir məktəbdə gərək yaxşı oxuyasan”, - deyə Xalq artisti uşaqlara səsləndi: “Bu gün savadsız adam heç kimə lazım deyil. Əvvəllər yaxşı oxumayan da özünü birtəhər bir yerə çıxara bilirdi. İndi bu, mümkün deyil. Fiziki gücə də çox arxayın olmaq olmaz, çünki 40-50 yaşdan sonra güc də tədricən tükənməyə başlayır, 20-25 yaşdakı kimi gücün olmur. Biz o vaxt “ingilis dili nəyə lazımdır?” - deyə ingilis dili dərsindən qaçardıq. Amma indi görürəm ki, səhv etmişik. Təcrübə göstərir ki, ingilis dilini bilmək yeni iş imkanları və təhsil üçün çox vacibdir. Bu gün oxuyan adam uğurlu həyat qura bilir. Özünüzü müasir təhsilin səviyyəsinə uyğunlaşdırın. Yeni texnologiyaları öyrənin, indi süni intellekt, robotlar əsridir. Bunlar get-gedə insanların əməyini əvəz edir. Əgər istəyirsinizsə gələcəkdə uğurlu həyat qurasınız, cəmiyyətə yararlı insan olasınız, onda mütləq yaxşı oxumalısınız. Ola bilər ki, kimsə sizi vəzifəyə qoyar. Amma oradan pul qazana bilməyəcəksiniz. Çünki savad yoxdursa, heç nəyə nail olmaq olmaz. Həyatınızı o zaman mənalı edə bilərsiniz ki, yaxşı oxuyasınız. Tövsiyəm odur ki, biliklərə yiyələnin, bu, sizi xoşbəxt edər. Arzu edirəm özünüzə elə bir peşə seçəsiniz və ailə həyatı qurasınız ki, Nazim Hikmət demişkən, həm işə, həm evə həvəslə gedəsiniz...”

### HƏR ZAMANIN ÖZ SƏNƏTKARI

“Necə düşünürsünüz, hazırkı aktyorlar sizin kimi Nəsimi, Babək rollarını oynaya bilərlərmi?”- deyə məktəblilərdən biri soruşdu: “Əvəzolunmaz adam yoxdur. Ağlıma gətirməzdim ki, kinoya çəkilərəm, çünki mən teatr aktyoru olmaq istəyirdim”, - deyə aktyor cavab verdi: “Hər dövrün öz müəllimi, öz həkimi, öz mühəndisi, sənət adamı gəlir. Bu gün gənclər, sənəti sevib gələn adamlar diqqətli və məsuliyyətli olsalar, yaxşı sənətkar ola bilərlər. Mən də sevinərəm ki, onlar Füzulini və ya Qarabağdakı şəhidlərimizin, qazilərimizin rolunu oynaya bilirlər. Mən Nəsimini oynamışam, qoy onlar Füzulini oynasınlar. Hər zaman öz sənətkarını yetişdirir”.

“Sənətkar üçün oynadığı ilk rol daha çox yaddaqalan olur, yoxsa onu məşhurlaşdıran obraz?” - deyə şagirdlərdən biri sual ünvanladı: “Olur ki, aktyorlar epizodlarda oynayırlar, sonra rejissorlar onların uğurunu görüb baş rol verirlər. Mənim taleyim elə gətirdi ki, o vaxt televiziyada, tamaşalarda oynayırdım, kinoya çəkilməmişdim. Siz onda dünyada yox idiniz. Bu da bir tale, şansdır. Mən yatdım-durdum, gördüm ki, məşhur adamam. Bircə rolla məşhurlaşdım. Bu, hər adama qismət olmur. Burada nüanslar var: istedad, zəhmətkeşlik və bəxt-şans... Gərək aktyor çalışsın ki, yaxşı rollar oynaya bilsin. Düzdür, bu gün kinoda durğunluq var, istədiyimiz kimi filmlər istehsal edə bilmirik. Amma inanıram ki, bu, müvəqqətidir, yenə filmlər olacaq...”

*“Teleseriallarda da çəkilmək istəmirəm. İstərdim ki, dərin psixoloji bir rol olsun, oynayım. Bu həvəsim hələ ölməyib. İstəyirəm ki, çəkilim...”*

### “SƏRİŞTƏSİ, USTALIĞI OLMAYAN ADAMLAR FİLM ÇƏKİRLƏR”

“Son illərdə çəkilən filmləri, serialları bir peşəkar gözü ilə izləyib gəldiyiniz qənaət bizim üçün maraqlıdır”, - deyə məktəblilərdən biri soruşdu: “Şəxsən mən narazıyam... Səriştəsi, ustalığı olmayan adamlar film çəkirlər. Qabaqlar belə şey yox idi”, - deyə aktyor narazılığını ifadə etdi: “Kim haradan pul tapırsa, ağlına gələn bir şey çəkir. Kinonun qanunlarını bilmirlər, ona görə tamaşaçılar da narazıdır. Məni də bəzən çəkilməyə dəvət edirlər. Bir dəfə getdim. Sonra düşündüm ki, axı mən sənət fədailəri ilə işləmişəm, burada hamısı xalturadır, əsas məsələ filmi təhvil verməkdir, rejissor işi zəifdir, ustalıq yoxdur... Ona görə daha getmədim. Kinoda yaranan boşluqda qeyri-peşəkarlar serial çəkməyə başladılar və deyərdim ki, tamaşaçıların da zövqünü korladılar. Məsələn, bu yaxınlarda mübahisəli bir film çəkildi: “Alatava” filmi. Başdan-ayağa söyüşdür. Axı sən bu filmlə efir vasitəsilə evlərə daxil olursan. Söyüşlə reytinq qazanmaq istəyirsən? Mən deyirəm, xoşlarına da gəlmir. Hətta məndən olsaydı onları cəzalan-dırardım. Bu, yolverilməzdir. Mən bazar-dükanda insanlarla görüşürəm. Onlar hamısı narazılıq-larını bildirirlər”.



Fotolar: Rüfət Mikayılov - Global Media Group



## “HƏR ŞEYİ BAŞLI-BAŞINA BURAXMAQ OLMAZ”

“Çəkildiyiniz filmlər senzuraya məruz qalıbmı”, -deyə məktəblilərdən biri sual ünvanladı: “O vaxt filmlər burada çəkilirdi, amma Moskva təsdiq edirdi. Filmlərimizdə dəyişikliklər edirdilər, kəsirdilər. Məsələn, “Axırıncı aşırım”, “Dəli Kür” filmləri bu qəbildəndir. Rüstəm İbrahimbəyov “İstintaq” filminin ssenarisini yazmışdı. Ssenariyə görə, bir milis işçisi bir manat rüşvət alır. Onda Moskvada dedilər ki, sovet milisi rüşvət ala bilməz. Rəhmətlik Heydər Əliyev filmə baxıb demişdi ki, bir nəfər ala bilər, bu, bütün milis işçilərinə aid deyil. Belə bir senzura vardı. Bu gün o senzura yoxdur, kino da yoxdur. Senzura indi nə üçün lazımdır: bu filmi tamaşaçının öhdəsinə buraxsan, ondan nəsə ibrətamiz bir şey götürə bilərlər, ya yox? Əgər ssenaridə söyüş vardısa, senzura qoymazdı, yəni sən ekrandan söyüş söyə bilməzsən. Bu mənada senzuranın yaxşı tərəfi də var. Hər şeyi başlı-başına buraxmaq olmaz. Nizam-intizam olmasa aləm bir-birinə qarışar. Müəyyən qanunlar var ki, hamı ona tabe olmalıdır. Yoxsa özbaşınalıq olar. İndiki bəzi filmlərdəki kimi...”





## VƏTƏNPƏRVƏRLİK DUYĞUSU VƏ UŞAQLAR

“Vətənpərvərlik mövzularında filmlərin insanlarda yaratdığı ruh yüksəkliyini necə dəyərləndirirsiniz?” - deyə şagirdlərdən biri soruşdu: “Hər bir adam kimliyindən asılı olmayaraq Vətəni sevməli, uğrunda canından keçməyə hazır olmalıdır”, - deyə aktyor bildirdi: “Bu sevgini isə uşaqlıqdan aşılamaq lazımdır. Bu vasitələrdən biri də kinodur. Ədəbiyyat və incəsənətin vətənpərvərlik hissinin tərbiyə olunmasında müstəsna rolu var. Bizim nəsil romanlar oxuyurdu. İndi uşaqlar daha çox sosial şəbəkələrə və digər bu kimi əyləncələrə vaxt ayırırlar. Hərdən “hansı yazıçı və şairləri tanıyırsınız”, - deyə uşaqlara sual verirəm. Görürəm ki, nə Mirzə Cəlili, nə Sabiri tanıyırlar. Çox pərişan oluram. Öz tariximizi yaxşı bilməlisiniz. Bu, sizə dünyanın istənilən yerində lazım olacaq. Bu mənada vətənpərvərlik əhəmiyyətli mövzudur”.

“Qəhrəman obrazını yaratmaq aktyordan hansı xüsusiyyətlər tələb edir?” - deyə auditoriyadan sual səsləndi: “Qəhrəman obrazı təkcə aktyordan asılı deyil. Burada rejissor və ssenarist də xüsusi rola malikdirlər. Aktyorlar obraza müəyyən ştrixləri əlavə edirlər. Mən qəhrəman obrazını, məsələn, Babəki oynayıram. Onun geyimini geyinirəm, onun dilində danışmağa çalışıram. Aktyor qəhrəman deyil, onun işi obrazı canlandırmaq və tamaşaçıya çatdırmaqdır. “Babək” filmi Suraxanıda, Atəşgahın yanında çəkilirdi. O filmin çəkilişi çox ağır keçirdi. Axşam 8-də gedirdik, sübh 5.00-da qayıdırdıq. Təxminən 20 gün belə işlədik. Gecə ilə gündüzümüz səhv düşmüşdü. Elə kadrlar vardı ki, gecələr çəkilirdi. Rejissorlar çox tələbkar idi. Aktyorlar da işlərinə son dərəcə məsuliyyətlə yanaşırdılar”.

### “UYĞUN SSENARİ YOXDUR”

“Babək, Nəsimi rollarını oynayanda çox gənc olmusunuz. Hazırda oynamaq istədiyiniz hansı obraz var?” - deyə auditoriyadan hamını maraqlandıran sual səsləndi: “Mən cavanlıqda yaşıma uyğun və nisbətən yaşlı rollar oynamışam. Bir çox tarixi şəxsiyyətlərin rolunda filmlərə çəkilmişəm. Amma indi uyğun ssenari yoxdur. Teleseriallarda da çəkilmək istəmirəm. İstərdim ki, dərin psixoloji bir rol olsun, oynayım. Bu həvəsim hələ ölməyib. İstəyirəm ki, çəkilim...”

### QÜRUR VƏ MƏSULİYYƏT HİSSİ

“Sizi “İstiqlal” ordeni ilə təltif edən zaman Prezident İlham Əliyevlə səmimi görüşünüz oldu. Dövlət başçısının sənətinizə verdiyi dəyər sizdə hansı hissləri yaratdı?” - deyə məktəblilərdən birinin sualına aktyor qürurla “minnətdarlıq hissi”, - deyə cavab verdi: “Bu, əməyimə verilən yüksək qiymətdir. Mən həm də Prezidenti cavanlıqdan tanıyıram. Rəhmətlik Heydər Əliyevlə tədbirlərə gəlirdi, 15-16 yaşı vardı. Bu qədər işi-gücü olan adam vaxt ayırıb sənə də diqqət göstərir... Mənimlə 50 dəqiqə söhbət etdi. Bu, məndə qürur hissi yaratdı. Əgər insanın əməyinə qiymət verilirsə, gərək işini ona uyğun qurasan. O qiymət insanı daha məsuliyyətli edir. Bu o deməkdir ki, dövlət sənə etimad göstərir, sən də çalışıb işinlə bu etimadı doğrultmalısan. Bir də görürsən ki, bir rayona yeni başçı təyin edilir, ona etimad göstərilir, o da gedib rüşvət alır. Etimadı doğruldan isə daha böyük vəzifəyə gedir. Gərək məsuliyyət hissini heç vaxt itirməyəsən”.

# QUŞ ƏTİ QITLIĞI OLMAYACAQ

Türkiyədə quş ətinin qiymətinin artması ixraca qadağa ilə müşahidə edilir. Ekspertlər bildirirlər ki, məlum proseslərin Azərbay-canda yaşanması ehtimalı azdır. Amma baş verənlər dolayısı ilə qiymətlərə təsir edə bilər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Türkiyədə toyuq ətinin qiyməti 200 faiz həcmində bahalaşıb. Bunun qarşısını almaq üçün hökumət müəyyən addımlar atmağa başlayıb. Belə ki, Ticarət Nazirliyi quş ətinin ixracına müvəqqəti qadağanı nəzərdə tutan yeni qanun hazırlayıb. İxraca qadağa qoyulursa, yəqin ki, idxalı stimullaşdırmağa da ehtiyac var. Bəs bu zaman Azərbaycan quş əti məhsullarını Türkiyəyə ixrac edə biləcəkmi? Heyvan ətinin bahalaşması fonunda qonşularımızın başına gələn proses bizim üçün nə dərəcədə realdır?

### "QUŞ ƏTİ İSTEHSALI KİFAYƏT QƏDƏRDİR"

Azərbaycan Quş əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyası İctimai Birliyinin sədri Mürvət Həsənlinin sözlərinə görə, qardaş ölkədə ixracı dayandırdıqları üçün yaxın zamanlarda qiymətlərdə stabilləşmə baş verə bilər: "Türkiyədə quş ətinin xaricə satışına qadağa qoyulmasının əsas səbəbi digər dövlətlərə xeyli miqdarda toyuq əti ixracıdır. Türkiyə toyuqlarını xüsusən də İran əldə edir. İxracın bu dərəcədə artması Türkiyədə toyuq əti qiymətlərinə çox ciddi təsir göstərib. Burada yeganə çıxış yolu digər ölkələrə olan ixracı dayandırmaqdır. Amma onlar üçün qorxulu heç nə yoxdur. Çünki quş əti istehsalı kifayət qədərdir. İxraca qadağa qüvvəyə mindikdə toyuq əti qiymətlərində tədricən normallaşma müşahidə ediləcək".

### HƏM İSTEHSAL EDİRİK, HƏM DƏ İDXAL

M.Həsənlinin fikrincə, ölkəmiz üçün də quş əti istehsalında heç bir qıtlıq və digər çətinlik gözlənilmir: "Hazırda ölkəmizdə kifayət qədər toyuq əti istehsalı mövcuddur. Bu, vətəndaşların istehlak tələblərini böyük ölçüdə qarşılaya bilir. Hazırda öz ölkəmizin toyuq əti tələbatının 85-90 faizini ödəmək potensialına sahibik. Qalan 10 faizlik tələbatımızı isə digər xarici ölkələrdən idxal etməklə qarşılayırıq. Quş əti idxal etdiyimiz ölkələrə Rusiya, Ukrayna, Belarus və digər MDB dövlətləri daxildir".

Sədr bildirdi ki, quş əti ixracımızla bağlı məsələ tamamilə başqadır: "Ümumiyyətlə, ölkəmizdən xaricə toyuq əti ixracı mövcud deyil. O cümlədən, Türkiyəyə də quş əti ixrac etməyimiz real görünmür".




## AZƏRBAYCANIN TOYUQ ƏTİNƏ EHTİYACI OLMAYACAQ

İqtisadçı Elçin Rəşidovun sözlərinə görə, Türkiyə ən böyük quş əti istehsalçısı və ixracatçılarından olduğu üçün Azərbaycan toyuğuna ehtiyacı olmayacaq: "Türkiyə hökuməti öz ölkəsindən toyuğun ixrac edilməsinə qadağalar tətbiq edib. Bu tədbirlər müvəqqəti xarakter daşıyacaq. Məqsəd Türkiyənin öz bazarını daxili istehsal hesabına təmin etməkdir. Onlar özlərini təmin etmək potensialına sahibdirlər. Bu da o demək-dir ki, onların Azərbaycanın toyuq ətinə ehti-yacları olma-yacaq. Çünki Türkiyə özü dünyanın ən böyük quş əti ixracatçılarından hesab olunur. Türkiyədə baş verən prosesləri tam qıtlıq kimi də dəyərləndirə bilmərik. Amma qiymət baxımından artımlar mövcuddur".

## BU MƏHSULLARDA QİYMƏT YÜKSƏLİŞİ GÖRƏ BİLƏRİK

E.Rəşidov qeyd etdi ki, Türkiyədəki proseslər Azərbaycana təsir etməsə də, Rusiya bazarında qiymətləri artıracaq: "İxrac ölkəsi olduqları üçün türklər daxili bazarlarında həmişə qiyməti daha aşağı saxlamağa çalışırlar. Azərbaycandan Türkiyəyə quş əti ixrac etmək üçün hələ şərait yoxdur. Türkiyənin Azərbaycanın toyuğuna ehtiyacı olması üçün qiymətlər o qədər qalxmalıdır ki, ölkəmizdən oraya toyuq əti ixracı onlar üçün sərfəli olsun. Amma Türkiyənin öz ölkəsindən toyuq əti ixracına qadağalar tətbiq etməsinin müəyyən bir təsiri olacaq. Bu qadağalardan Rusiya bazarı təsirlənə bilər. Rusiya bazarında toyuq əti qiymətlərində xeyli yüksəlmə müşahidə edilməsi mümkündür".



Mürvət Həsənli

İqtisadçının fikrincə, Rusiyaya ixrac qabiliyyətimiz sayəsində daxili bazarımızda müəyyən proseslər baş verə bilər: "Bu, ölkəmizə də dolayı yolla təsir edəcək. Azərbaycan Türkiyəyə toyuq əti ixracı etməsə də, Rusiyaya ixracı gözlənilir. Daxili bazarımızda toyuq əti qiymətlərində artım olması mümkündür. Qıtlıq və azalma yaşanmasa da, qiymət yüksəlişi görə bilərik".

### TOYUQ ƏTİ İSTEHSALÇILARI QAZANCLI ÇIXACAQLAR

Müsahibimiz bildirdi ki, iqtisadiyyatımıza faydalı olsa da, vətəndaşlarımız üçün heç də müsbət tendensiya deyil: "Qiymət artımı baş verdiyi zaman toyuq əti istehsalçıları qazanclı çıxmış olurlar. Onlar artıq məhsullarını daha baha qiymətə sata biləcəklər. İxrac etdiyimiz məhsulun qiymətinin artması həmişə ölkənin ümumi daxili məhsul göstəricisinə müsbət təsir göstərir. Amma məsələnin mənfi tərəfləri də var. Burada uduzan tərəf istehlakçılardır. Lakin son nəticədə ümumi iqtisa-diyyatımız üçün müsbət addım-dır".



Elçin Rəşidov

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, İlhamə Əbülfət, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1001
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

YENİ QAYDALAR BAZARDA KİFAYƏT QƏDƏR ÇAŞQINLIQ YARADIB

# ƏMLAK BAZARINDA "TİLOV EFFEKTİ"

Əmlak bazarında durğunluq yaşanır. Ekspertlər bu qənaətdədirlər ki, səbəb alqı-satqı prosesində maliyyənin mənbəyinin göstərilməsi tələbi və real əsası olmayan qiymət artımıdır.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Yanvar ayından etibarən daşınmaz əmlak bazarında yeni qaydaların tətbiqinə başlanılıb. Əmlak ekspertləri və alqı-satqı edənlərin sözlərinə görə, 20 min manatdan yuxarı əməliyyatlar üçün notariat kontorları tərəfindən yazılı bəyannamə tələb olunur. Yəni daşınmaz əmlak alan şəxs ödədiyi vəsaitin mənbəyini göstərməlidir. Maraqlıdır, bu qaydalar daşınmaz əmlak bazarına necə təsir edib?

### MƏNTİQSİZ QİYMƏT ARTIMI

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, bazarla bağlı istənilən dəyişiklik təsirsiz ötüşmür. Sədrin sözlərinə görə, hazırda daşınmaz əmlak bazarından təklif olunan qiymətlər çox yüksəkdir və bu, hər ay artan templə davam edir: "Hazırda bazarda alqı-satqı faktları o qədər də çox deyil. Buna baxmayaraq, öz əmlakını satmaq istəyən vətəndaşlar mövcud iqtisadi durumu, əmlak qiymətlərində baş verə biləcək dəyişiklikləri nəzərə alaraq, əmlaklarını yüksək qiymətlərlə təklif etməkdən çəkinmirlər. Məlumdur ki, qiymət artımı hər hansı iqtisadi prosesin nəticəsi olur. Lakin son vaxtlar bu sahədə xaotiklik müşahidə edilir. Məsələn, bazarın müəyyən bir hissəsində qiymətlər çox yüksək həddədir, digər rayonda qiymət stabilliyi var. Eyni zamanda, bəzi qiymət artımlarını da məntiqi baxımdan izah etməkdə çətinlik çəkirik".



### DİGƏR MƏNZİL SAHİBLƏRİ DƏ QİYMƏTƏ BAXIR VƏ...

Mütəxəssis vurğulayır ki, mənzil bazarında "tilov effekti" hökm sürür: "Bazarda mövcud qiymətlərdən uzaq təkliflərə də rast gəlirik. Yəni bəzi mənzil sahibləri əmlakçıların vədlərinə inanaraq öz əmlaklarını daha yüksək, real olmayan qiymətə təklif edilər. Digər təklif edənlər də qiymətə baxır, düşünür ki, mən niyə ucuz qiymətə satmalıyam. Bu tendensiya belə davam edir. Mən buna "tilov effekti" deyirəm. Yəni bir şəxs bazar üçün əsas yaradır və qiymətlər süni şəkildə qalxır. Təbii ki, bahalaş-manın tək səbəbi bunlar deyil. Amma 'tilov effekti" də xüsusi rol oynayır".

## GƏLİRLƏRİ AÇIQLAMAQDAN NİYƏ QORXMALIYIQ?



Vüqar Oruc

Vətəndaşların ev alarkən gəlirlərini bəyan etmək məsələsinə gəldikdə isə, mütəxəssis vurğulayır ki, bu, ölkənin təhlükəsizliyi ilə bağlı məsələdir və tətbiqi də vacibdir: "Bu, hər bir Azərbaycan vətəndaşı və dövlət üçün çox önəmlidir. Ölkədə əmlak alqı-satqısı üzərindən müxtəlif layihələr gerçəkləşdirilə bilər ki, bu, ölkənin milli maraqlarına uyğun deyil. Təbii ki, ölkənin təhlükəsizliyi üçün müəyyən tədbirlərin görülməsi vacibdir. Bu, həm də sivil dünyanın tələbidir. Hər bir vətəndaş öz gəlir mənbələrini istənilən vaxt açıqlamağa hazır olmalıdır. İnsanlar qazandıqları gəlirləri açıqlamaqdan niyə qorxmalıdırlar?"

Vətəndaşların alqı-satqı zamanı incidilməsi məsələsinə gəldikdə isə, V.Oruc deyir ki, qeyd edildiyi kimi, burada vətəndaşların incidilməsi, sorğuya çəkilməsi prosesi baş vermir: "Sadəcə, vətəndaşlarla gəlirlərinin haradan gəldiyi ilə bağlı sorğular aparılır və bununla da kifayətlənirlər. Kimsə bu hala görə daşınmaz əmlakın alqı-satqısından imtina etmir, planını dəyişmir. Bu, sadəcə qoruyucu tədbirdir və Azərbaycanın dövlət maraqlarına cavab verən addımdır".

## ALICILAR ONSUZ DA KÜSKÜNDÜRLƏR

Əmlak eksperti Mülkədar Rüstəmov isə deyir ki, yanvardan tətbiq olunan bu qaydalar bazarda kifayət qədər çaşqınlıq yaradıb: "Müştərilərim də bununla bağlı problem yaşadı. Əvvəlki qaydalarda mənzil satılan zaman vergi tutulurdu. Əgər bir vətəndaş üç il ərzində satdığı ünvanda qeydiyyatda olubsa, o, vergidən azad olunurdu. Əks halda 100 kvadratmetrlik mənzili olan vətəndaş 70 kvadratmetrin vergisini ödəyir, 30 kvadratmetrini isə dövlət güzəşt edirdi. Bu, artıq oturuşmuş bir qayda idi və narazılıq yox idi. Amma 2024-cü ilin yanvar ayından tətbiq olunan bəyannamə məsələsi ciddi narazılıq yaratdı".

Əmlakçı vurğulayır ki, evini satıb ev alanlar müqavilə sənədi ilə gəlirini rahat göstərə bilirlər, lakin xaricdə yaşayan iş adamları ilə bağlı çaşqınlıq yaranır: "Əsasən, biznes fəaliyyəti ilə məşğul olanlar bu pulun mənbəyini göstərməkdə çətinlik çəkirdilər. Xüsusilə, qonşu Rusiya, Türkiyədə hər hansısa bizneslə məşğul olub, gəlirini burada yatırım etmək istəyən insanlarda çaşqınlıq yarandı. Nəticədə bu qərar bir çox alqı-satqı prosesini ləngitdi. Bəzi insanlar gəlirlərini bəyan etməkdən narahat olurdular. Xüsusilə, yanvar ayında mənzil bazarında ciddi səngimə oldu. Bunun hələ tövsiyə xarakterli olduğu deyilir. Ciddi şəkildə tətbiqi əmlak bazarına böyük zərbə vura bilər. Çünki hazırda ciddi bahalaşma var və alıcılar onsuz da küskündürlər. İnsanlar gəlirlərinə görə əmlak ala bilmir, ipoteka məbləğləri real deyil. Hazırda əmlak bazarında durğunluq var. Mənzil alanların əksəriyyəti öz mənzilini satıb başqa mənzil alanlardır, ya da çox imkanlı insanlardır. Aşağı və orta təbəqə incikdir".



Mülkədar Rüstəmov

BAKIDA DA BÖYÜK ŞƏHƏRLƏRİN ACI TƏCRÜBƏSİ YAŞANA BİLƏR

# ƏNƏNƏVİ BAZARLAR SIRADAN ÇIXIR?

Bazarlar bir-bir sıradan çıxır. Ekspertlərin bir qismi bazarların bağlanmasını dəstəkləsə də, digər qismi bu addımların yanlış olduğunu bildirir. Onların fikrincə, bazar bizim keçmişimizdir və onu qoruyub saxlamalıyıq.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Qida Təhlükəsizliyi Agentliyi (AQTA) Azərbaycanda fəaliyyət göstərən 83 ərzaq bazarını yoxlayıb və onlardan dördü fəaliyyətini dayandırıb. Bu vaxta qədər Bakıda ənənəvi bazarlardan "Şüşəli bazar", Yasamal bazarı və "Təzə bazar"ın söküldüyü məlumdur. Bəzən bazarların ləğvi insanlar arasında narazılıq yaradır. Bəs görəsən həqiqətənmi ənənəvi bazarlar tarixə qovuşur?

### KİRAYƏ QİYMƏTLƏRİ FƏRQLİ OLUR

Vaxtilə "Təzə bazar"da ticarətlə məşğul olan Həsrət Qəhrəmanovun sözlərinə görə, bazarların bağlanılması ən çox orada çalışan insanlara təsir edir: "Bazar bağlandıqda insanların qazanc yeri də əlindən çıxır. Elə adamlar var yaşı çoxdur, başqa işlə də məşğul ola bilmirlər. Başqa yerə köçürüldükdə isə həm kirayə qiymətləri fərqli olur, həm də satıcı müştərilərini itirir. Yeni açılan bazarda alıcı kütləsi də eyni olmur. Böyük marketlərin yaradılması bazarların müştərisini azaldır".

### "KÖHNƏ BAZARLAR MÜTLƏQ BƏRPA OLUNMALIDIR"

Memar Dilqəm İsmayılov isə bildirdi ki, bazar ənənəsi dünya ölkələrində də mövcuddur: "Bazarlar Azərbaycanın keçmişdən gələn mədəniyyət nümunəsidir. Bazar mədəniyyəti təkcə Azərbaycanda deyil, İtaliyada, Cənubi Avropa ölkələrində də mövcuddur. Bazarlar xüsusən də şərq ölkələrində insanların sosiallaşması üçün bir məkan olub. Səliqəli dizaynla bazarları bərpa etmək olar. Düşünürəm ki, köhnə bazarlar mütləq bərpa olunmalıdır. Əgər "Şərq bazarı" kimi xüsusi arxitekturaya sahibdirsə, bu, nəzərə alınmalıdır. Amma bazarlarda bütün sahələrə aid məhsullar olsa, daha yaxşı olardı".

### "BAKI ÜÇÜN BAZAR MƏDƏNİYYƏTİ ÇOX ÖNƏMLİDİR"

D.İsmayılovun fikrincə, şəhər memarlığında da bazarların özünəməxsus yeri olmalıdır: "Məsələn, "Nəsimi bazarı" insanların ehtiyaclarını ödəyirdi. Bu bazarı söküb yerində çoxmərtəbəli binalar, biznes mərkəzləri tikmək düzgün yanaşma deyil. Bazar təkcə qida almaq üçün deyil, həmçinin insanda bir emosiya yaradır. "Təzə bazar" da ənənəvi bazarlar kimi tikilir, ümid edirəm müasir şəkildə fəaliyyət göstərəcək. Fikrimcə, Bakı üçün bazar mədəniyyəti çox önəmlidir".

## "BÜTÜN DÜNYADA BU PROSES GEDİR"

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov qeyd etdi ki, bazarlar ləğv olunduqca, insanlar marketlərə üz tutur: "Bazarların tədricən sıradan çıxması təbii haldır. Bütün dünyada bu proses gedir. Xaricdəki böyük şəhərlərdə artıq bazarlar ləğv edilib. Amma bunu da nəzərə almalıyıq ki, Azərbaycan düşüncəsində bazarlar insanların görüşməsi, əlaqə saxlaması üçün əhəmiyyətli rola malikdir. Həmçinin insanlar üçün qida məhsullarının daha əlçatan olmasına xidmət edir. Heyif ki, bu ənənə sıradan çıxır. Böyük arazisi olan bazarların yerində çoxmərtəbəli binalar, ticarət mərkəzləri inşa olunur".

E.Hüseynovun sözlərinə görə, antisanitariya hallarını aradan qaldırmaq şərtilə bazarları yaşatmalıyıq: "Gələcək nəsil üçün bazar ənənəsi qalmır. Bundan narahat olmalıyıq. İstehlakçılar da istəyərlər ki, alış-verişlərini bazarlarda etsinlər. Amma bazarlarda antisanitar vəziyyət hökm sürür. Lakin Bakıda yerləşən bəzi bazarlar belə deyil, hətta digər ölkələrdən gələn insanları da valeh edirlər. İstisna hallar da mövcuddur. İnsanları məcburən marketlərə yönəldirlər. Amma insanlar öyrəşdikləri bazarları tərk etmək istəmirlər. Bazar iqtisadiyyatı mal satışının təmərküzləşməsini tələb edir deyə, bazarların çökməsi prosesi gedir".



Dilqəm İsmayılov

Eyyub Hüseynov

## İNSANLARIN BÜDCƏSİNƏ TƏSİR ETMƏYƏCƏK

Sosioloq İlqar Hüseynli isə görülən işlərin doğruluğunu vurğuladı: "Bazarların bəzisi restavrasiya olunub şərq üslubunda görünüşünü saxlayır. Digər bazarların da yenilənməsi həyata keçirilir. AQTA-nın mövqeyi ilə razıyam. Orada olan epidemioloji vəziyyəti nəzərə alsaq, həqiqətən də bazarlarda acınacaqlı durum mövcuddur. Xüsusən də "8-ci kilometr" və "3-cü mikrorayon" bazarlarında sanitar normativ qaydalara əməl olunmur. Müasir dünyada tələblər də dəyişib. Bazarlar əslində sıradan çıxmır, sadəcə yenilənir. Böyük şəhərlərdə bu cür bazarlar demək olar ki, qalmayıb. Bütün sistem qapalı şəraitlərə, supermarketlərə, daha müasir texnologiyaların tətbiq olunduğu və soyuducu sistemlərə malik olan modern tipli satış mərkəzlərinə çevrilir. Düşünürəm ki, ənənəvi bazar modelindən daha sivil satış mərkəzlərinin yaranmasına istiqamətlənməliyik. İnsanlar qiymətdən narazılıq edir, amma bəzən bazarda məhsullar daha baha olur. Bazarların tədricən müasirləşməsi insanların büdcəsinə təsir etməyəcək".



İlqar Hüseynli

# “Bakcell” yeni innovativ mağazasını təqdim etdi




“Bakcell” Fəvvarələr Meydanında yeni brend kimliyinə uyğun innovativ mağazasını təqdim etdi. Mayın 3-dən etibarən fəaliyyətə başlayan mağazanın açılışında “Bakcell”-in süni intellekt dəstəkli insanabənzər robotu Ardi iştirak edib. Yenilənmiş mağaza üstün xidmət mərkəzi olmaqla birgə müasir müştəri yanaşmasını sərgiləyən “high-tech” təcrübə məkanıdır. Belə ki, mağaza müştərilərə yüksək keyfiyyətli xidmətlərlə yanaşı, oyun həvəskarları üçün VR zona, yeni nəsil texnologiya aləti Apple Vision Pro və rəqəmsallaşdırılmış monitorlar da təqdim edir. Müştərilər “Bakcell”in növbəti həftələrdə təqdim edəcəyi yeni məhsullarla yerində tanış ola və onları birbaşa mağazadan əldə edə bilərlər. Hacı Zeynalabdin Tağıyev küçəsi 19 (Fəvvarələr Meydanı) ünvanında yerləşən yenilənmiş mağaza həftə içi 9:00-dan 20:00-a, həftəsonu 10:00-dan 18:00-dək fasiləsiz fəaliyyət göstərir.

Qeyd edək ki, “Bakcell”in yeni təqdim olunmuş brend strategiyası gələcəyə hədəflənərək Azərbaycan üçün innovativ xidmətlər təqdim etməkdir.

# “Nar” rabitə sahəsinin peşəkarlarını hazırlayır




Sərfəli qiymətləri və hər kəsə uyğun təklifləri ilə tanınan “Nar” təhsil istiqamətində uzunmüddətli sosial layihələrinə davam edir. Azərbaycanın mobil rabitə sahəsinin yerli peşəkarlara dayanaraq inkişaf etməsi üçün “Nar” Azərbaycan Texniki Universitetinin (AzTU) tələbələri üçün mobil rabitə təlimlərini davam etdirir.

“Nar” və Azərbaycan Texniki Universitetinin (AzTU) 10 ilə yaxındır ki, davam edən əməkdaşlığı çərçivəsində universitetin texniki istisaslar üzrə təhsil alan tələbələri “Nar” texniki heyətinin təşkil etdiyi rabitə təlimlərində iştirak edir, “Nar” laboratoriyasında əyani dərslər keçir və “Nar”ın təcrübə proqramına qoşulurlar.

Qeyd edək ki, “Nar”ın texniki heyəti yerli peşəkarlardan formalaşır və bu tendensiyanı qorumaq məqsədilə, “Nar” ilin əvvəlində daha bir texniki istiqamətdə ixtisaslaşmış ali təhsil müəssisəsi – Gəncədə yerləşən Azərbaycan Texnologiya Universiteti ilə əməkdaşlığa başlayıb.

“Nar”ın həyata keçirdiyi sosial layihələr haqqında ətraflı məlumatı operatorun rəsmi saytından (nar.az) əldə edə bilərsiniz.



# Kəlbəcərin Baş Planının DETALLARI AÇIQLANIB

**Plana əsasən, şəhər ərazisinin 22 %-i yaşıllıqlardan ibarət olacaq. 60 hektar sahədə fərqli yaş və sosial qruplar üçün yaşıllıq zolaqları yaradılacaq.**

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 1 may 2024-cü il tarixli, 235 nömrəli qərarına əsasən, “Kəlbəcər şəhərinin 2040-cı ilədək inkişafına dair Baş Planı” təsdiq edilib.

### BAŞ PLANA ƏSASƏN...

“Report”un məlumatına görə, otuz illik erməni işğalı nəticəsində dağıdılan Kəlbəcər şəhərinin Baş Plan konsepsiyası işğal dövründən əvvəlki vəziyyəti və ərazinin relyefi, tarix-memarlıq ənənələri nəzərə alınmaqla tərtib edilib. Plan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi ilə şəhərsalma sahəsində irimiqyaslı layihələrin müəllifi olan İsveçrənin “sa partners” şirkətinin və Bakı Dövlət Layihə İnstitutunun təcrübəli mütəxəssisləri tərəfindən hazırlanıb.

Baş Plana əsasən, Kəlbəcər şəhəri mövcud məskunlaşma ərazisini və yaxınlığındakı Boyaqlı kəndini əhatə edəcək. Şəhərin şimal-şərq istiqamətindəki əsas girişindən başlayaraq cənub-qərb istiqamətində uzanan baş küçəsi planlaşdırma strukturunun əsasını təşkil edir. Küçənin başlanğıc nöqtəsində şəhərin sənaye və istehsalat zonası, orta hissəsində şəhər mərkəzi, bitiş nöqtəsində isə turizm və sosial xidmət obyektləri nəzərdə tutulub.

### ŞƏHƏRİN ƏRAZİSİ GENİŞLƏNDİRİLƏCƏK

Qeyd edək ki, şəhərin işğala qədərki (1969-cu ildə tərtib edilən) son Baş Planında ərazisi 130 ha, əhalisinin sayı isə 7500 nəfər təşkil etdiyi halda, 2040-cı ilədək inkişaf konsepsiyasına uyğun olaraq bu rəqəmlər iki dəfədən çox artacaq (290 hektara yaxın ərazi, 17000 nəfər əhali). Şəhərin mərkəzi ortamərtəbəli çoxmənzilli və inzibati binalardan ibarət olacaq. Ətrafda isə fərdi yaşayış evlərinin tikintisi aparılacaq.

Şəhərin ümumi yaşayış fondu 488 min m² təşkil edəcək ki, bunun da böyük hissəsi (421 min m²) fərdi yaşayış evlərinin, 46 min m²-i isə ortamərtəbəli yaşayış binalarının payına düşəcək. Ümumən 2040-cı ilədək əhalinin 4250 mənzillə (adambaşına 25 m²) təmin olunması nəzərdə tutulub.

## DÖRD MƏKTƏB, İKİ XƏSTƏXANA

Şəhərdə həmçinin dörd məktəb (960 şagird yerlik), dörd uşaq bağçası (520 yerlik), iki xəstəxana (160 çarpayılıq), bir reabilitasiya mərkəzi (150 çarpayılıq), İşğal və Zəfər muzeyləri, mehmanxanalar, müxtəlif ictimai-iaşə obyektləri və idman meydançalarının tikintisi planlaşdırılır.

Plana əsasən, şəhər ərazisinin 22 %-i yaşıllıqlardan ibarət olacaq, yəni 60 hektar sahədə fərqli yaş və sosial qruplar üçün yaşıllıq zolaqları yaradılacaq. Beləliklə, ölkənin digər şəhərlərində ümumi istifadədə olan yaşıllıq sahəsinin adambaşına düşən norması 7-10 m² nəzərdə tutulduğu halda, Kəlbəcər şəhərində bu göstərici 33 m² təşkil edəcək.

## SU TƏMİNATI BELƏ ÖDƏNİLƏCƏK




Baş Plana uyğun olaraq, şəhərin yol infrastrukturu da müasir standartlar tətbiq edilməklə qurulacaq. Əhali uzunluğu 27 km-dən artıq olan avtomobil, 22 km olan velosiped yollarından rahat şəkildə istifadə edə biləcək.

Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurun “yaşıl enerji” zonasına çevrilməsi ilə bağlı tapşırığına uyğun olaraq, şəhərin enerji təminatı bərpaolunan enerji potensialından istifadə edilməklə həyata keçiriləcək. Əhalinin içməli su təminatı isə Ağçayın su mənbələri hesabına ödəniləcək.

Kəlbəcər şəhərinin iqtisadi inkişafında xidmət (xüsusən turizm) və kənd təsərrüfatı sektorları böyük rol oynayacaq. Şəhər yenidən qurulan “İstisu” sanatoriyasına yaxın ərazidə yerləşdiyindən burada müalicəvi turizmin inkişafına təkan verəcək obyektlər də inşa olunacaq. Bütün bunlar isə əhalinin dayanıqlı məşğulluğuna əlverişli zəmin yaradacaq.

DÜNYADA DUZDAN İSTİFADƏ AZALIR, BİZDƏ İSƏ...

# “ÜÇ AĞ”DAN BİRİNƏ OLAN SEVGİMİZ





**Azərbaycanda duz istehsalı artıb. Dünyada əksər insanların duzdan imtina etməyə, yaxud istifadəni azaltmağa çalışdığı halda ölkəmizdə qeydə alınan bu artım maraq oyadır. Ekspertlər bu artımı bir sıra səbəblərlə əlaqələndirirlər.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

“Üç ağ” - duz, şəkər, undan uzaq durun deyirlər. Lakin məhz bu məhsulların Azərbaycanda istehsal və istehlakının artmasının şahidi oluruq. Məsələn, fevral ayında açıqlanan rəqəmlərə görə, ölkədə şəkər istehsalı 25 faiz artıb. Dövlət Statistika Komitəsinin apreldə açıqladığı rəqəmlərdə isə duz istehsalının 13 faiz artdığı məlum olur. Komitənin məlumatına görə, 2024-cü ilin yanvar-mart aylarında 19 min 342,6 ton duz istehsal edilib. Bu, 2023-cü ilin eyni dövrü ilə müqayisədə 2 174,3 ton çoxdur. Hətta 2024-cü ilin 1 aprel tarixinə hazır məhsul ehtiyatı olmayıb.



Fuad İbrahimov

### DUZ DAĞINA DÖNƏN ÖMRÜMÜZ

Maraqlıdır, artımın səbəbi nədir? Ən əsası, dünyada əksər insanların duzdan imtina etməyə, yaxud istifadəni azaltmağa çalışdığı halda bizim duz sevgimiz nədən qaynaqlanır?

Duz sevgimiz hətta atalar sözləri, məsəllərdə də özünü büruzə verir. Məsələn, “aşın tamı duz ilə, adamı tanı söz ilə”, yaxud, “ömrün duz dağına dönsün”, - deyirik. Həmçinin atalarımız deyir ki, “adamı tanımaq üçün onunla bir pud duz yemək lazımdır”. Yəni bir adamla 16 kiloqram duz yeməliyik ki, onun necə insan olduğunu bilək.

### RƏQƏMLƏRİN ARTMASINDA VERGİ XİDMƏTİNİN ROLU VAR

Mütəxəssislər duz istehsalının artımını ixrac və ölkədə duza olan tələbatın artması ilə əlaqələndirirlər.

İqtisadçı Fuad İbrahimov “Kaspi” qəzetinə açıqlamasında bildirdi ki, əvvəllər duz yığımı kortəbii şəkildə baş verirdi, indi isə iqtisadi dövriyyəyə cəlb edilir, rəsmi şəkildə istehsal olunur: “Bəzi duz yataqlarından istifadə olunmurdu. İndi həmin yataqlar iqtisadi dövriyyəyə cəlb edilirlər. Bundan əlavə, əvvəlki dövrlərə nəzər salsaq, uçotun istehsal prosesindəki vəziyyəti indiki kimi deyildi. Uçot prosesi sağlamlaşır və bu da statistikada özünü göstərir. Rəqəmlərin artmasında vergi xidmətinin xüsusi rolu var”.

Mütəxəssis vurğulayır ki, duz bazarında heç vaxt defisit olmur. Tələbat nədirsə, o da istehsal edilir: “Duz istehlakı bazarı elədir ki, nə qədər lazımdırsa, o qədər istehsal olunur. İstehlakla yanaşı, nəzərə almaq lazımdır ki, idxal da edirik. Bu səbəbdən rəqəmlərin artması normaldır”.

## DUZ SEVƏN XALQ OLSAQ DA...

Duz sevən xalq olsaq da, onun orqanizmə olan zərərləri danılmazdır. “Üç ağdan uzaq durun” deyimi boşuna yaranmayıb. Zərərli qidalar siyahısında duz ilk üçlükdədir. Mütəxəssislər bildirirlər ki, duz yalnız təzyiqi qaldırması ilə məşhur deyil, xüsusilə təmizlənmiş duz insan sağlamlığına ciddi təhlükə yaradır.

Sənaye mühəndisi Sayat Quliyeva deyir ki, qida rasionumuzdakı natrium mənbəyi olan duz insan orqanizmində maye balansını tənzimləməkdə mühüm rol oynayır. Mütəxəssisin sözlərinə görə, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) insanların gündə beş qramdan az duz istehlak etməsini tövsiyə edir: “Natrium xlorid insan orqanizmində sintez olunmayan tək mineraldır ki, insan onu duz vasitəsilə alır. Bədənimizdə duza mineral azlığı, yaxşı qidalanmama, tərləmə, dad alma hissinin yaranmaması, stress və yorğunluq zamanı ehtiyac yaranır. Bununla yanaşı, içdiyimiz suların tərkibində yod çatışmazlığı mövcuddur. Bu çatışmazlıq qalxanabənzər vəzlərin xəstəliyini yaradır. Yodlaşdırılmış duzlar isə belə halların qarşısını almaqda kömək edir. Bu səbəbdən ÜST duzun yodlaşdırılmasını dünyada yod çatışmazlığının qarşısının alınması üçün əhəmiyyətli səhiyyə strategiyası hesab edib”.

## HİPERTONİYA, İNSULT, ARTIQ ÇƏKİ...

Mütəxəssis deyir ki, qida sənayesində məhsulun keyfiyyət xüsusiyyətləri və istehlakçı tərəfindən qəbul edilməsi tərkibindəki duzun miqdarı ilə bağlıdır: “İşlənmiş qidalar, ət məhsulları (kolbasa, sosiska və s.), duzlu çərəzlər (çipslər, krekerlər, duzlu fıstıq, günəbaxan tumları və s.), pendir və başqalarını buna nümunə göstərmək olar. Duzun istifadəsi nəinki qida istehsalında geniş yayılıb, günümüzdə fərqli sahələrdə, dəriçilikdə, maldarlıqda, sutəmizləmə sistemlərində istifadə edilir. Bu səbəbdən istehsalın artması normaldır”.

Zərərlərinə gəldikdə isə mühəndis deyir ki, hazırda duzun rəflərdəki ömrünü uzatmaq üçün istehsalda qatqılardan istifadə edilir: “Duz orqanizmdə maye balansını tənzimlədiyi üçün həddindən artıq qəbulu bədənimizdə maye artıqlığına səbəb ola bilər ki, bu da üzdə, əllərdə, ayaqlarda şişkinlik yaradır. Eyni zamanda, insan orqanizmində yüksək qan təzyiqi (hipertoniya), insult kimi ürək-damar, böyrək xəstəlikləri, artıq çəki kimi bir sıra problemlərə səbəb olur. Bununla yanaşı, hazırda duzun rəflərdəki ömrünü uzatmaq, nəm çəkmə səbəbindən yaranan topalanma, bərkimə və s. problemlərin qarşısını almaq üçün qida əlavələrindən istifadə edilir. Bu qatqılar nəm çəkməyə qarşı istifadə olunur və təhlükəli qida əlavələri qrupuna aiddirlər”.

### HANSI DUZLARDAN İSTİFADƏ ETMƏLİYİK?

S.Quliyeva bildirir ki, duzun istehlakında keyfiyyətinə görə daş və bişirilmiş duz daha əhəmiyyətli hesab edilir: “Himalay duzu və rafinə edilməmiş qaya duzunu nümunə göstərmək olar. Bəzən insanlar duz miqdarının azaldılması məqsədilə dadlandırıcı olaraq duzun əvəzinə yeməklərdə ətirli ot, limon suyu, şərab, sirkə kimi əlavələrdən də yararlanırlar”.

Son olaraq, həkimlər tövsiyə edirlər ki, yuxarıda sayılan təhlükələrdən qorunmaq üçün süfrələrdən duzqabılar çıxarılmalı, yeməklərdə bərk, təhlükəsiz, keyfiyyətli və təmiz qaya duzundan istifadə edilməlidir.



Sayat Quliyeva

PEŞƏSİNƏ SON DƏRƏCƏ MƏSULİYYƏTLƏ YANAŞAN AKTYOR





# TEATRIN SARI SİMİ

Sənət dostları tanınmış aktyor Kamal Xudaverdiyevi mərd, bütöv və sədaqətli insan kimi xatırlayırlar. Deyirlər ki, sənətkar ömrünün sonuna qədər yaşam prinsiplərinə sadiq qalıb. Heç kimin qarşısında əyilməyib. Anası onu necə dünyaya gətirmişdisə, eləcə də dünyadan köçüb.



SÖHBƏTLƏŞDİ
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

"Mən bu sənətə pul xətrinə gəlməmişəm. Yadıma gəlir ki, ilk dəfə burada 40 manat maaş almışam. Sonra olub 60, 70 və yavaş-yavaş qalxıb... Yəni bura varlanmaq üçün gəlməmişəm. Mən özümü bu sənətin fanatı sayıram. Elə bil teatr mənim üçün dənizdir və özümü bu dənizdə balıq kimi hiss edirəm".

Akademik Milli Dram Teatrın tanınmış aktyoru Kamal Xudaverdiyevi doğum günü - 3 may ərəfəsində xatırlamaq istəyəndə yadıma vaxtilə onunla müsahibədə dediyi bu sözlər düşdü. Bu sözlər mərhum aktyorun sənətə də, həyata da baxışlarını dolğun əks etdirir.

Yadımdadır, mənimlə son müsahibəsində 13 yaşından əmək fəaliyyətinə başlamasından, 10 il xam torpaqlarda fəhlə işləməsindən, teatra uşaqlıq sevgisindən, əlindəki son qəpiyini teatr biletlərinə xərcləməsindən, səhnədə korifeyləri görməsindən və onlara baxıb aktyor olmaq arzusundan, nəhayət, ömrünü sənətə həsr etməsindən danışmışdı. Sonra köks ötürərək bir az dəyişən zəmanədən şikayətlənmişdi. Bulvarda tənha gəzməyi, özü ilə baş-başa qalmağı xoşladığını, bir də yazın gəlişini və açan sarı çiçəkləri sevməsini demişdi...

Sənət dostları da onu mərd, bütöv və sədaqətli insan kimi xatırlayırlar.

## TEATRDA ÇOX GÖZƏL VƏ YADDAQALAN OBRAZLAR YARATDI

Xalq artisti Mərahim Fərzəlibəyov bildirdi ki, Kamal özündən sonra nəinki obrazları ilə, həmçinin yaxşı insan kimi xatırlanır: "Çünki o həmişə öz aktyorları ilə, xüsusən gənclərlə ünsiyyət qurmağı çox sevər və onlara dəstək göstərərdi. Onunla işbirliyim ilk dəfə "Xurşudbanu Natəvan" tamaşasında oldu. Ona Hidayət xan obrazını verdim. Daha sonra Nəriman Həsənzadənin "Atabəylər" əsəri əsasında hazırladığım tamaşada Qızıl Arslan Atabəy rolunu məhz onun oynamasını istədim. Əsər yazılanda da biz onun aktyor imkanlarını nəzərə alaraq böyük monoloqlara yer verdik. Demək olar ki, əsər müəllif və mən tərəfdən Kamal Xudaverdiyevə həsr olundu. Ondan sonra da "Maqbet" və bir sıra başqa tamaşamda rol aldı. Kamal teatrda çox gözəl və yaddaqalan obrazlar yaratdı. Tamaşaçılar indi də həmin rolları məhəbbətlə xatırlayırlar".

## HEÇ KİMİN QARŞISINDA ƏYİLMƏDİ

"Kamal orijinal, heç kimə bənzəməyən aktyor idi", - deyə Xalq artisti Səidə Quliyeva xatırlayır: "Onun öz yolu, cığırı, tembri və aktyor oyunu vardı. Mən bu aktyoru çox sevirdim. Onunla tərəf-müqabil olanda da "səhnədə Kamalla oynayıram", - deyə özümə çox arxayın olurdum". S.Quliyeva deyir ki, əsl Azərbaycan kişisinə məxsus bütün xüsusiyyətlər Kamal Xudaverdiyev də olub: "Elə insanlar var ki, onların şəxsi həyatları yaradıcılıqları ilə üst-üstə gələndə böyük önəm təşkil edir. Kamalın şəxsi xarakterindəki ağayanalıq, kişilərə məxsus boy-buxun onun aktyor oyununa da yaxşı mənada təsir edirdi. Oynadığı obrazlar tamaşaçının yaddaşında qalırdı. Əsl Azərbaycan kişisinə məxsus bütün xüsusiyyətlər Kamalda vardı. Bütöv insan idi Kamal. Onun ikinci planı çox zəif idi: bir insan haqqında nə düşünürdüsə "pissən, ya yaxşısan" sözlərini onun üzünə deyirdi. Kamal ömrünün sonuna qədər belə yaşadı. Heç kimin qarşısında əyilmədi, heç kimə yaltaqlanmadı. Anası onu necə dünyaya gətirmişdisə, eləcə də dünyadan köçdü. Mən Kamalı bu xüsusiyyətlərinə görə çox sevirdim. Bizim nəslin nümayəndələri Kamalı çox yaxşı xatırlayırlar".

S.Quliyeva deyir ki, mərhum aktyorla birlikdə institutda da pedaqoji fəaliyyət göstərib: "Kamal kursun rəhbəri, mən müəllimi idim. İstər səhnədə, istərsə də institutda birlikdə o qədər iş təcrübəmiz olub ki... Mən onun iş prosesindən həmişə öyrənmişəm və zövq almışam".

> *Kamalın şəxsi xarakterindəki ağayanalıq, kişilərə məxsus boy-buxun onun aktyor oyununa da yaxşı mənada təsir edirdi. Oynadığı obrazlar tamaşaçının yaddaşında qalırdı.*




Foto: Tapdıq Abdullayev/Global Media Group

## BİR DUBLA ÇƏKİLƏNLƏR

Kamal Xudaverdiyevlə "Nəsimi" filmində Fatima rolunu oynayan aktrisa Xalidə Quliyeva yaddaşını vərəqləyir: "Kamal Xudaverdiyevi böyük sənətkar adlandırsam azdır, o, həmçinin gözəl insan idi. O, böyük hərflərlə yazılan AKTYOR idi. Bu hər adama nəsib olan xüsusiyyət deyil. O, xarizmatik, qürurlu, ləyaqətli, işinə, peşəsinə son dərəcə məsuliyyətlə yanaşan insan idi. "Nəsimi" filminin çəkilişlərində mən onun bu məsuliyyətinin şahidi oldum. Aktyorlar var ki, çəkiliş meydanına bir neçə dəqiqə qalmış gəlirlər, amma o bir ay qabaqdan gəlib ölçüb-biçirdi. Filmdə Yusif rolunu oynayırdı. Rejissor Həsən Seyidbəyli onu bir dubla çəkirdi. Həmin kadrların təkrar çəkilməyə ehtiyacı olmurdu. Ümumiyyətlə, o filmdəki aktyorlar hamısı bir dubla çəkilirdi. Mənim onda 20 yaşım vardı. Kamal Xudaverdiyevdən və digər böyük aktyorlardan öyrənirdim". Aktrisa danışır ki, Kamal Xudaverdiyevin həyatda başına çox işlər gəlsə də, o, öz qürurunu qorumağı bacarıb: "Onu sındırmağa, alçaltmağa çalışdılar. Ona qarşı haqsızlıqlar çox oldu, amma dözdü. O, həmişə dalğın, düşüncəli, az danışan idi, içinə qapanmışdı...".

## "ONUN GÖZLƏRİNƏ BAXA BİLMİRDİM"

"Bir dəfə Vilayət Hacıyev onun haqqında dedi ki, Kamal teatrın sarı simidir", - deyə Əməkdar artist Hicran Nəsirova danışır: "Tamaşalarda onun xanımını da, qızını da, gəlinini də, sevgilisini də oynamışam. Çox duyğulu, ağır təbiətli, sanballı adam idi. Aktyor kimi onunla oynamaq rahatlıq idi. Məşqlərdə əvvəlcə ondan çəkinirdin, get-gedə çox rahat işləyirdin. O, tərəf-müqabilini başa düşürdü. Kral Liri oynayanda onun gözlərinə baxa bilmirdim. Rolda onun üstünə getdiyim üçün qəddar olmalıydım. Amma gözünə baxsaydım, özümü ağlamaq tutardı. Çox həssas aktyor idi. Çox heyf ki, bu cür aktyorlarımız və tərəf-müqabillərimiz həyatdan gedir. Fəxr edirəm ki, Kamal Xudaverdiyevlə bir teatrda işlədim, tərəf-müqabil oldum".

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi
İDMAN
4 MAY ŞƏNBƏ 2024
www.kaspi.az



Ülviyyə Fətəliyeva tarixi nəticəyə imza atdı. O, Yunanıstanın Rodos adasında təşkil edilən qadın şahmatçılar arasında Avropa çempionatında bütün rəqiblərini üstələdi. Turniri məğlubiyyətsiz başa vuran Fətəliyeva 10 görüşdə 8,5 xal qazandı.

# AVROPANI FƏTH EDƏN XANIM

Azərbaycan qadın şahmatı iri addımlarla irəliləyir. Əvvəllər də xanım iti zəka sahiblərimiz uğurlu nəticələr əldə ediblər. Lakin uğurlu qadın şahmatçımız heç vaxt bu qədər parıldamayıb. Bacarıqlı bir gənc nəsil yetişib və onlar hər turnir əvvəlkindən daha yaxşı nəticələr əldə edirlər. Təkcə ötən il qadın millimiz Avropa çempionatında gümüş medal qazandı, 18 yaşlı Ayan Allahverdiyeva dünya çempionu olmağı bacardı. Günay Məmmədova, Gövhər Beydullayeva, Gülnar Məmmədova, Xanım Balacayeva kimi təmsilçilərimiz tez-tez beynəlxalq turnirlərdə özlərindən bəhs etdirə bilirlər.

### AVROPA ÇEMPİONATINDA BÜTÜN RƏQİBLƏRİNİ ÜSTƏLƏDİ

Son olaraq Ülviyyə Fətəliyeva tarixi nəticəyə imza atdı. O, Yunanıstanın Rodos adasında təşkil edilən qadın şahmatçılar arasında Avropa çempionatında bütün rəqiblərini üstələdi. Turniri məğlubiyyətsiz başa vuran Fətəliyeva 10 görüşdə 8,5 xal qazandı. Sonuncu turda güclü Gürcüstan şahmatçısı Nino Batsiaşvili ilə qarşılaşmada əldə edilən heç-heça onun qitə çempionatında qızıl medal qazanan ilk azərbaycanlı xanım şahmatçı kimi tarixə düşməsi üçün kifayət etdi. Ülviyyə Fətəliyeva ən yaxın izləyicilərini bir xal üstələyərək tarixi uğura imza atdı.

### "GENERALLAR"DAN ÖNDƏ GEDƏN "ƏSGƏR"

Şahmat üzrə milli komandamızın da üzvü olan Ülviyyə 1996-cı ildə Gəncədə anadan olub. Gəncə şahmat məktəbinin yetirməsi artıq yeddi yaşı olarkən ölkəmizi beynəlxalq arenada təmsil etməyə başlayıb. Rəsmi debütünü Türkiyədə edən iti zəka sahibi orada özündən üç yaş böyüklərlə mübarizə aparıb.

Fətəliyeva 2010-cu ildə Batumidə keçirilən 14 yaşadək şahmatçılar arasında Avropa çempionatında bütün rəqiblərini üstələyərək birinci olub. Dörd il sonra o, eyni şəhərdə 18 yaşadək şahmatçılar arasında hamını üstələyib. O, həmçinin 20 yaşlı qızlar arasında Azərbaycan çempionu, qadınlar arasında Azərbaycan çempionatının gümüş mükafat-çısıdır. 2022-ci ildə Çexiyanın paytaxtı Praqada keçirilən qadınların Avropa çempiona-tında səkkiz xalla bürünc medala sahib olan idmançı bu il, nəhayət, arzusuna çataraq Avropanın ən güclüsü oldu.

Budəfəki qitə birinciliyində çoxlu titullu idmançı, səkkiz qrossmeyster mübarizə aparırdı. Fətəliyeva hazırda beynəlxalq usta dərəcəsindədir. O, reytinqinə görə turnirin ən güclüləri sırasında da deyildi. Ümumiyyətlə, favoritlərdən hesab edilmirdi. Lakin bu dəfə bir "əsgər" "generallar"ı üstələməyi bacardı.

## RİSKLƏRİ SEVƏN, TƏZYİQDƏN ÇIXMAĞI BACARAN

Ülviyyə Fətəliyeva Avropa çempionu adını qazandıqdan sonra arzusunun həyata keçdiyini bildirib. O, uğurunu yaxşı hazırlığa, hisslərə qapılmadan təmkinlə oynamağa bağlayıb. Lakin ümumən 27 yaşlı şahmatçı öz oyunlarında risklər etməyi sevir və bunu uğurla həyata keçirir. Keçmiş dünya çempionları - Robert Fişer və Maqnus Karlsenin oyunlarından ilhamlanan beynəlxalq ustanın oyunlarında da onların stilinə xas elementləri sezmək olar. Ülviyyə daha çox aqressiv oynamağı, hücum etməyi və heç-heçədən qaçmağı sevir. Buna görə də piyadaları, hətta fiqurları tez-tez qurban verir. Şahmat bəzən cansıxıcı oyun hesab edilsə də, bu fikri Fətəliyevanın oyunlarına aid etmək doğru deyil.



## ÜLVİYYƏ İLƏ BAĞLI DAHA BİR MARAQLI MƏQAM

Ülviyyə ilə bağlı daha bir maraqlı məqam onun qara fiqurlarla oynamağa üstünlük verməsidir. Adətən, şahmatçılar ilk gediş üstünlüyünə görə ağlarla oynamağa can atırlar. Qaralar müdafiə olunan tərəf olduğu üçün əsasən heç-heça üçün çalışırlar. Lakin Fətəliyevanın yaxşı debüt biliyi, oyun ortası və oyun sonunda hesablama bacarığı, yaradıcılığı və soyuqqanlılığı təzyiq altında dəqiq gedişlər etməsinə imkan verir. Onun ən bəyəndiyi fiqur isə atdır. Əgər at lövhədədirsə, deməli, həmişə rəqib üçün təhlükələr yaratmaq imkanı da mövcuddur. Bu, klassik şahmat ustalarının partiyalarından süzülüb gələn əhəmiyyətli oyun üslubudur.

## YAXŞI TƏHSİL, UĞURLU İDMAN KARYERASI

Ülviyyə Fətəliyeva böyük arzuları olan hər bir gənc üçün motivasiya mənbəyi olmalıdır. O, şahmat karyerası ilə yanaşı, keyfiyyətli təhsil almağa da imkan tapıb. Xarici Dillər Universitetinin ingilis dili müəllimliyi fakültəsini bitirən xanım şahmatçı Romanın La Sapienza Universitetində ingilis və amerikanşünaslıq ixtisası üzrə magistr təhsili almağa da vaxt və fürsət tapa bilib. O, Avropa çempionu olduqdan sonra bildirib ki, bu uğuru xəyal quran gənclərə kömək ola bilər. Çünki böyük uğurlar barədə öncə xəyal qurmalı və daha sonra bunu edəcək bacarığa sahib olduğuna inanmalısan. Ülviyyə də xəyal qurdu, inandı və bacardı.